'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



13 İYUN ŞƏNBƏ 2026 № 21 (4272) Qiyməti - 60 qəpik www.kaspi.az



## İLHAM ƏLİYEV VLADİMİR PUTİNİ TƏBRİK EDİB

"Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda bütün rusiyalıları dövlət bayramı – Rusiya Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm".

SƏHİFƏ 2-də



## ERMƏNİSTANDAKI SEÇKİLƏRDƏ AZƏRBAYCAN AMİLİ

Son seçkilər Ermənistan cəmiyyətinin sülh prosesinə nə dərəcədə hazır olduğunu ortaya qoydu. Bu imtahanın nəticələri müəyyən məqamlar nəzərə alınmaqla kafi olaraq dəyərləndirilə bilər.

SƏHİFƏ 7-də



## VALİDEYNLƏRİN "PAYLAŞIM" SEVDASI

Valideynlərin övladlarının foto və videolarını virtual məkanda nümayiş etdirmələri adi hal alıb. Amma bu paylaşımlar əslində kibertəhlükəsizlik kimi problemləri də özü ilə gətirir.

SƏHİFƏ 8-də



## PUA-LARIN İSTİFADƏSİNDƏ YENİ QAYDALAR

Avtonom pilotsuz uçuş aparatı insan tərəfindən birbaşa idarə olunmadan, əvvəlcədən proqramlaşdırılmış marşrut üzrə hərəkət edən hava nəqliyyatı vasitəsi hesab ediləcək.

SƏHİFƏ 10-da

### AZƏRBAYCANIN MƏHV OLMAQ TƏHLÜKƏSİNDƏN QURTULDUĞU GÜN

# XİLAS YOLUNUN BAŞLANĞICI

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə ölkəmizi məhv olmaq təhlükəsindən xilas etdi. Onun ikinci dəfə hakimiyyətə qayıdışından sonrakı 10 il ərzində Azərbaycanda dərin təməllərə söykənən hərtərəfli islahatlar həyata keçirildi.

**AZƏRBAYCAN ÜÇÜN MÜQƏDDƏS TARİX**

15 iyun tarixi Azərbaycan xalqının xaos və anarxiyadan, dövlətin və dövlətçiliyin məhv olmasından, şəhidlərimizin qanı bahasına bərpa olunan müstəqilliyin itirilməsi təhlükəsindən qurtuluş günüdür. Əminliklə qeyd edə bilərik ki, o zaman Azərbaycanın dövlət kimi varlığına birdəfəlik son qoyulması planı tam gücü ilə işə salınmışdı.

**XALQ ÖZ XİLASKARINA ÜZ TUTDU**

Ümummilli Lider Heydər Əliyev iyunun 9-da Bakıya qayıdandan 4 gün sonra Gəncəyə səfər edərək hadisələri yerindəcə araşdırdı. Öz həyatını riskə atan Ulu Öndər Heydər Əliyev Gəncədə qiyamçı polkovniklə danışıqlar aparıb vəziyyəti nəzarət altına ala bildi. İyunun 15-də isə Ali Sovetin sədri seçildi.

SƏHİFƏ 3-DƏ





## REGİONLARIN İQTİSADİ İNKİŞAFINA TÖHFƏ

Prezident İlham Əliyevin imzaladığı fərman və dövlət dəstəyi mexanizmləri sahibkarlıq sektorunun inkişafı üçün mühüm baza, ciddi stimul yaradır. Bu məsələdə əsas diqqət aqrar sahəyə yönələcək.

SƏHİFƏ 4-də



## PORTUQALİYADA SƏFİRLİYİMİZ AÇILACAQ

Milli Məclis Azərbaycanın Portuqaliyada səfirliyinin təsis edilməsini təsdiqləyib. Məsələ parlamentin növbədənkənar sessiyasının iclasında müzakirəyə çıxarılıb.

SƏHİFƏ 2-də



## BAKI YOLLARINDA YENİ ÇAĞIRIŞLAR

Yol hərəkəti iştirakçıları üçün inzibati xətalara görə müxtəlif məbləğlərdə cərimələr tətbiq olunur. Cərimə balının əlavə mexanizm kimi tətbiqi "cərimə üzərindən əlavə cərimə" kimi qiymətləndirilir.

SƏHİFƏ 12-də



## "QIRMIZI QATAR"IN NAĞILI

"Bernina Express" İtaliya ilə İsveçrəni birləşdirən, 2253 metr yüksəkliyi fəth edən, unikal bir layihədir. Bu mühəndislik möcüzəsinin son dayanacağı cazibədar xizək kurortu Sent Moritz şəhəridir.

SƏHİFƏ 15-də

TƏHSİL



## MÜƏLLİM HAZIRLIĞINDA YENİ MƏRHƏLƏ

Bu ildən bəzi universitetlər üçün qəbul planının azaldılması gözlənilir. Xüsusilə də pedaqoji ixtisasların azaldılması məsələsi gündəmdədir. Ekspertlər bu prosesin qaçılmaz olduğu qənaətindədirlər.

SƏHİFƏ 11-DƏ

İDMAN



## KLUBLARIMIZ AVROPA SƏHNƏSİNƏ ÇIXIR

İyunun 16-da Çempionlar Liqası, Avropa Liqası və Konfrans Liqasının ilk təsnifat mərhələlərinin püşkü atılacaq. Lakin hazırda Azərbaycan klubları üçün bəzi qeyri-müəyyən məqamlar qalmaqdadır.

SƏHİFƏ 16-DA



# İlham Əliyev Vladimir Putini təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev rusiyalı həmkarı Vladimir Putini Rusiya Günü münasibətilə təbrik edib. Təbrikdə deyilir: "Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda bütün rusiyalıları dövlət bayramı – Rusiya Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.
Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər xalqlarımızı əsrlər boyu birləşdirən dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. İkitərəfli iqtisadi-ticari qarşılıqlı fəaliyyətin fəal şəkildə inkişaf etməsini, regionlararası və mədəni-humanitar əlaqələrin genişlənməsini məmnunluqla qeyd edirəm.
Əminəm ki, birgə səylərimiz dost ölkələrimizin və xalqlarımızın rifahı naminə Azərbaycan-Rusiya münasibətlərinin, strateji tərəfdaşlıq və müttəfiqlik məcrasında çoxplanlı əməkdaşlığın bundan sonra da inkişafına və möhkəmlənməsinə kömək edəcək.
Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, Rusiyanın bütün vətəndaşlarına isə əmin-amanlıq və tərəqqi arzulayıram".



# Portuqaliyada səfirliyimiz açılacaq

Milli Məclis Azərbaycanın Portuqaliyada səfirliyinin təsis edilməsini təsdiqləyib. "Report" xəbər verir ki, bununla bağlı məsələ parlamentin növbədənkənar sessiyasının iclasında müzakirəyə çıxarılıb. Sənədə əsasən səfirlik Lissabon şəhərində yerləşəcək.
Milli Məclisin deputatı Samir Vəliyev bildirib ki, Azərbaycanla Portuqaliya münasibətləri dostluq əlaqələri üzərində qurulub: "Azərbaycanın Lissabonda səfirliyinin açılması iki ölkə arasında əlaqələrə ciddi töhfələr verəcək. Bu, eyni zamanda parlamentlərarası münasibətə də təkan verəcək".
Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov da iki ölkə arasında münasibətlərin yaxşı olduğunu deyib: "Bu yaxınlarda Portuqaliyanın da Azərbaycanda səfirliyi fəaliyyətə başlayacaq".
Müzakirələrdən sonra layihə bir oxunuşda qəbul edilib.

# BÖLGƏLƏRDƏ REGİONAL MÜŞAVİRƏLƏR BAŞLADI



**Aqrar sektorun inkişafı ilə bağlı regional müşavirələrə start verilib. Prezident İlham Əliyevin tapşırığı ilə reallaşan müşavirələrdə əsas məqsəd Dövlət Proqramını müzakirə etməkdir.**

Ağdaş rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi məqsədilə regional müşavirə keçirilib.
Prezident İlham Əliyevin tapşırığı ilə keçirilən müşavirələrdə Prezidentin köməkçiləri, aidiyyəti dövlət qurumlarının rəhbərləri, səlahiyyətli nümayəndələr, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, fermerlər, sahibkarlar və digər maraqlı tərəflər iştirak ediblər.
Regional müşavirə çərçivəsində Dövlət Proqramının əsas məqsəd və prioritetləri, aqrar sahədə nəzərdə tutulan yeni dəstək mexanizmləri, su və torpaq ehtiyatlarından səmərəli istifadə, aqrar emal və logistika infrastrukturunun inkişafı, eləcə də fermerlərin müasir aqrar xidmətlərə çıxışının genişləndirilməsi, bu istiqamətdə dövlət dəstəyi və digər məsələlər müzakirə olunub.

### KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏYƏ KEÇİD

Prezidentin köməkçisi - Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev bildirib ki, Azərbaycanda 2015-2025-ci illərdə aqrar sahənin inkişafı ilə bağlı inqilabi islahatlar həyata keçirilib. Keyfiyyətcə yeni mərhələyə keçidin vacibliyi, müasir dövrün tələblərinə cavab verən, yüksək məhsuldarlığa malik ixracyönümlü istehsala istiqamətlənmiş yeni Dövlət Proqramının qəbul edilməsini şərtləndirib: "Bu proqram qarşıdakı dövr üçün aqrar sektorun yeni inkişaf modelini müəyyən edən strateji sənəddir və aqrar sahədə məhsul istehsalının artırılması, resurslardan səmərəli istifadə, emal və ixrac imkanlarının genişləndirilməsi, dəyər zəncirlərinin, həmçinin balıqçılıq və akvakultura sahələrinin inkişafının yeni mərhələyə keçirilməsi baxımından mühüm yol xəritəsi kimi çıxış edir".

### "MƏRKƏZİ ARANDA 242 MİN HEKTAR SUVARILAN SAHƏ MÖVCUDDUR"

Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılov qeyd edib ki, Mərkəzi Aran iqtisadi rayonu Azərbaycanın aqrar inkişafında xüsusi rol oynayır: "Bu potensialın tam reallaşdırılması isə ilk növbədə etibarlı və dayanıqlı su təminatından asılıdır".
Z.Mikayılov vurğulayıb ki, hazırda Agentliyin xidmət göstərdiyi ərazilərdə Ağdaş rayonunda 36 min 337 hektar, Göyçay rayonunda 26 min 568 hektar, Kürdəmir rayonunda 69 min 504 hektar, Ucar rayonunda 28 min 935 hektar, Yevlax rayonunda 42 min 786 hektar, Zərdab rayonunda 38 min 759 hektar, Mingəçevir şəhərində isə 1 099 hektar suvarılan sahə mövcuddur: "Sözügedən ərazilərdə fəaliyyət göstərən su təsərrüfatı infrastrukturu ümumilikdə 9 375 kilometrə yaxın suvarma şəbəkəsini, 17 767 hidrotexniki qurğunu, 98 subartezian quyusunu və 231 nasos stansiyasını əhatə edir".

### BUĞDA İSTEHSALINDA HƏDƏF RAYONLAR

Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli qeyd edib ki, Dövlət Proqramının ən mühüm istiqamətlərindən biri buğda istehsalının artırılması və məhsuldarlığın yüksəldilməsidir. Onun sözlərinə görə, bu sahədə yanaşma artıq daha hədəfli formalaşdırılır: "Rayonlar potensiala, suvarma imkanlarına, aqropark infrastrukturuna və lazer hamarlama imkanlarına görə qruplaşdırılır. Buğda istehsalı üzrə 22 rayon hədəf rayon kimi müəyyən edilib. Hədəf rayonlarda orta məhsuldarlığın 50 sentnerə, dəmyə rayonlarında isə 30 sentnerə çatdırılması nəzərdə tutulur. Perspektiv rayonlarda isə 2029-cu ildən sonra məhsuldarlıq hədəfi 50 sentner kimi müəyyən edilir".

### ƏSAS HƏRƏKƏTVERİCİ QÜVVƏ MƏHSULDARLIĞIN ARTIRILMASI OLACAQ

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov qeyd edib ki, ölkədə qida istehsalı və ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas yük özəl sektorun üzərinə düşür. Onun sözlərinə görə, qarşıdakı dövrdə aqrar sahənin inkişafı üçün dövlət və özəl sektor arasında əməkdaşlığın daha da gücləndirilməsi, investisiyaların artırılması və müasir istehsal yanaşmalarının geniş tətbiqi xüsusi əhəmiyyət daşıyacaq: "Uzun illər kənd təsərrüfatında artım əsasən əkin sahələrinin genişləndirilməsi hesabına təmin edilib. Əlavə torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması istehsalın artmasına imkan yaradırdı. Lakin bu yanaşma artıq öz potensialını demək olar ki, tükədib. Bundan sonra inkişafın əsas hərəkətverici qüvvəsi məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqi və daha səmərəli istehsal modelinə keçid olmalıdır".



Məcnun Məmmədov

# XİLAS YOLUNUN BAŞLANĞICI

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə ölkəmizi məhv olmaq təhlükəsindən xilas etdi. Onun ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonrakı 10 il ərzində Azərbaycanda dərin təməllərə söykənən hərtərəfli islahatlar həyata keçirildi.

ƏRTURAN İSMAYIL

15 iyun tarixi Azərbaycan xalqının xaos və anarxiyadan, dövlətin və dövlətçiliyin məhv olmasından, şəhidlərimizin qanı bahasına bərpa olunan müstəqilliyin itirilməsi təhlükəsindən qurtuluş günüdür. Ötən əsrin 80-ci illərinin sonlarına doğru Azərbaycanda geniş vüsət alan Milli Azadlıq Hərəkatı 1990-cı ilin Qanlı yanvar hadisələrindən sonra özünün məntiqi sonluğuna çatdı. “Azadlıq” şüarı altında birləşən xalq SSRİ adlı nəhəng imperiyanın əsarətindən qurtuldu. Düz 70 il davam edən totalitar rejim 1991-ci ildən başlayaraq müstəqil idarəetmə ilə əvəz olundu. “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul olunması tarixi varisliyi təmin etdi. Müasir Azərbaycan Respublikasının 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olduğu bütün dünyaya bəyan oldu.

### BÖHRAN DAHA DA DƏRİNLƏŞİRDİ

Lakin yenicə müstəqilliyinə qovuşmuş Azərbaycan 1918-1920-ci illərdə mövcud olan AXC-nin aqibətini yaşamaq - cəmi iki ildən sonra işğal olunmaq, dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşdi. Dövlət idarəetməsində naşılıq, siyasi qüvvələrin hakimiyyət uğrunda mübarizəsi ölkədə hər il yeni prezidentin vəzifəyə gətirilməsinə, əksəriyyəti təsadüfi adamlardan ibarət məmur kontingentinin formalaşmasına səbəb oldu. Azərbaycan daxilində bu cür iqtisadi-siyasi böhranın mövcudluğu fonunda isə Ermənistan silahlı birləşmələri ərazilərimizi işğal etməyə başladı.

Çox təəssüf ki, o dövrdə xaricdən hərbi müdaxilə, rayonların bir-birinin ardınca erməni işğalına məruz qalması Azərbaycandakı siyasi qüvvələri vahid ideya ətrafında birləşdirə bilmədi. Əksinə, 1993-cü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən bəzi başıpozuq silahlı dəstələrin qanunsuz əməlləri böhranı daha da dərinləşdirdi. Ölkə daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yarandı, ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meylləri baş qaldırdı.

### QİYAMÇILAR PAYTAXTA İRƏLİLƏYİRDİ

Qardaş qırğınına səbəb olan hadisələr 1993-cü il iyunun 4-də Gəncədə Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ilə başladı. Vəziyyəti nəzarətə almaq üçün mövcud hakimiyyətin atdığı tələsik addımlar isə durumu daha da gərginləşdirdi. Gəncəyə yola düşən dövlət nümayəndələri Sürət Hüseynovun adamları tərəfindən girov götürüldü, dövlət maraqlarını müdafiə edən hərbçilərə atəş açıldı. Qiyamçı hərbi hissənin rəhbərliyi əvvəlcə Baş nazir Pənah Hüseynovun və Milli Məclisin sədri İsa Qəmbərin, sonra isə Prezident Əbülfəz Elçibəyin istefasını tələb etdi. Qiyamçı polkovnik bu tələblərlə kifayətlənmirdi. O, ətraf rayonların icra hakimiyyətlərinə öz adamlarını yeni başçı olaraq təyin edir, onlar vasitəsilə regionu nəzarətdə saxlayırdı. Hakimiyyətin özünə qarşı gücsüzlüyünü hiss edən S.Hüseynov tabeliyindəki hərbi hissənin Bakıya doğru irəliləməsinə əmr vermişdi.

### AZƏRBAYCAN XALQI ÖZ XİLASKARINA ÜZ TUTDU

Əminliklə qeyd edə bilərik ki, o zaman Azərbaycanın dövlət kimi varlığına birdəfəlik son qoyulması planı tam gücü ilə işə salınmışdı. Xarici təhlükənin qarşısını almaq əvəzinə, daxili çəkişmələrə daha çox maraq göstərən sapı özümüzdən olan baltalar bilərəkdən və ya bilməyərəkdən bu planın əsas icraçılarına çevrilmişdilər. Məhz belə bir vaxtda Azərbaycan xalqı müdrik qərar qəbul edərək öz xilaskarına üz tutdu. Xalqın təkidli tələbi qarşısında aciz qalan siyasi rəhbərlik Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevi Bakıya dəvət etməkdən başqa çıxış yolu görmədi. Ümummilli Lider Heydər Əliyev iyunun 9-da Bakıya qayıdandan 4 gün sonra Gəncəyə səfər edərək hadisələri yerindəcə araşdırdı. Öz həyatını riskə atan Ulu Öndər Heydər Əliyev Gəncədə qiyamçı polkovniklə danışıqlar aparıb vəziyyəti nəzarət altına ala bildi. İyunun 15-də isə Ali Sovetin sədri seçildi.

## ULU ÖNDƏRİN ÇAĞIRIŞI

Həmin dövrdə dövləti məhv olmaqdan xilas edən Ümummilli Lider Heydər Əliyev parlamentdəki tarixi çıxışında Azərbaycanın gələcəyi naminə hamını birliyə, bərabərliyə səsləyirdi: “Mən burada Milli Məclisin iclasında, bu tribunadan üzümü bütün Azərbaycan vətəndaşlarına tuturam, bizim qardaşlarımıza, bacılarımıza, övladlarımıza tuturam və müraciət edirəm və bildirirəm ki, bizim respublika indi ağır vəziyyətdədir. Bizim ən böyük çətinliyimiz, bir də deyirəm, işğal olunan torpaqlarımızı geri qaytarıb Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin etməkdən ibarətdir. Ona görə bütün daxili iğtişaşlar, daxili didişmələr kənara qoyulmalıdır”.

### XALQIN ÖZ XİLASKARINA HÖRMƏT VƏ EHTİRAMI

Xalqımızın tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özünün əsas vəzifələrindən biri hesab edən Ulu Öndər Heydər Əliyev 1993-cü ildə ölkəmizi məhv olmaq təhlükəsindən xilas etdi. Onun ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonrakı 10 il ərzində Azərbaycanda dərin təməllərə söykənən hərtərəfli islahatlar həyata keçirildi. Təsadüfi deyil ki, Cənubi Qafqazın lider dövləti kimi dünyaya səs salan müasir və müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəri sayılır. Əldə etdiyimiz bütün uğurların təməlində məhz onun böyük uzaqgörənliklə müəyyənləşdirdiyi siyasi kurs dayanır. Bu siyasi kurs 2003-cü ildən başlayaraq Prezident İlham Əliyev tərəfindən də layiqincə davam etdirilir. Ərazi bütövlüyü, suverenliyi təmin olunan, güclü və qüdrətli Azərbaycan beynəlxalq birliyin hörmət etdiyi inkişaf etmiş dövlətdir. Bu dövlətin təqvimindəki 15 iyun tarixi isə Qurtuluş Günü kimi qeyd olunmaqla xalqın öz keçmişinə, xilaskarına minnətdarlıq borcu, hörmət və ehtiramıdır.



# REGİONLARIN İQTİSADİ İNKİŞAFINA MÜHÜM TÖHFƏ



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Prezident İlham Əliyevin imzaladığı fərman və dövlət dəstəyi mexanizmləri sahibkarlıq sektorunun inkişafı üçün mühüm baza, ciddi stimul yaradır. Bu məsələdə əsas diqqət aqrar sahəyə yönələcək.

Prezident İlham Əliyevin imzaladığı "Sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə təminat və faiz subsidiyası mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman sahibkarlıq layihələrinə yeni yanaşma gətirir. Fərmana əsasən, 2030-cu ilin sonuna qədər biznes kreditlərinə dövlət dəstəyi pilot layihə kimi Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla ölkənin digər ərazilərində tətbiq ediləcək.

Bəs yeni qaydalar bölgələrdə biznes mühitinin və kənd təsərrüfatının inkişafına necə təsir göstərəcək?

**GİROV VƏ EMAL PROBLEMİ**

İqtisadçı-ekspert Cəfər İbrahimli deyir ki, sahibkarların kreditləri üzrə dövlət təminatı mexanizmi bir neçə ildir İpoteka və Kredit Zəmanət Fondu vasitəsilə həyata keçirilirdi. Yeni Fərmanla bu mexanizmin icrası Azərbaycan Biznesin İnkişafı Fonduna həvalə edilir: "2026-2030-cu illəri əhatə edən kənd təsərrüfatı üzrə dövlət proqramı var. Bu proqram çərçivəsində aqrar sektor üçün yeni yanaşmalar nəzərdə tutulur. Xüsusilə fermerlərin banklardan götürdüyü konversiya kreditləri üzrə subsidiyaların tətbiqi planlaşdırılır. Eyni zamanda birillik əkinlər üzrə yaranan qısamüddətli maliyyə ehtiyaclarının daha operativ şəkildə qarşılanması məqsədilə dövlət tərəfindən subsidiyanın bir hissəsinin ödənilməsi nəzərdə tutulur. Bu mexanizm fermerlərin maliyyə xərclərinin azaldılmasına, nəticə etibarilə isə ümumi istehsal xərclərinin optimallaşdırılmasına xidmət edəcək".

C. İbrahimli vurğulayır ki, bu dəyişikliklər regionlardakı şirkətlərin, biznes subyektlərinin və kənd təsərrüfatı sektorunun dəstəklənməsinə yönəldiyi üçün burada iki əsas məqam diqqət çəkir: "Birincisi, kənd təsərrüfatında uzun illərdir mövcud olan girov problemi ilə bağlıdır. Bu sahədə girov mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac var. Fermerlərin müqavilələr, torpaq sənədləri və reyestr çıxarışları əsasında əldə etdikləri hüquqların girov kimi daha çevik qəbul olunması kreditlərə çıxışı asanlaşdıra bilər. Bu isə həm banklar, həm də fermerlər üçün maliyyələşmənin daha sürətli və əlçatan olmasına şərait yaradar. İkinci mühüm məqam bu islahatların regionlarda emal sənayesinin inkişafına təsiri ilə bağlıdır. Bu addımların kənd təsərrüfatı ilə paralel olaraq emal sənayesini də gücləndirəcəyi gözlənilir. Çünki emal imkanları olmadan məhsulların satışı və realizasiyasında çətinliklər yaranır, bu da fermerlərin risklərini artırır".



Cəfər İbrahimli



## "BU, STRATEJİ ƏHƏMİYYƏT DAŞIYIR"

Kənd təsərrüfatı üzrə ekspert Xaliq Məmmədov bildirdi ki, regionların iqtisadi potensialının gücləndirilməsi strateji əhəmiyyət daşıyır: "Azərbaycanda müşahidə olunan urbanizasiya prosesi kənd təsərrüfatının inkişafı üçün risklər yaradır. Aqrar fəaliyyətlə məşğul olan əhalinin kəndləri tərk etməsi istehsalla yanaşı, qeyri-neft sektorunun inkişafına da mənfi təsir göstərir. Regionlarda investisiya və sahibkarlığın təşviq edilməsi həmin tendensiyanın zəiflədilməsi baxımından mühüm addımdır".

**"AQRAR SEKTORDA VƏZİYYƏT CİDDİ MÜDAXİLƏ TƏLƏB EDİR"**

Mütəxəssisin qənaətincə, son illərin rəsmi statistikası göstərir ki, aqrar sektorda vəziyyət ciddi müdaxilə tələb edir: "Məsələn, vaxtilə Azərbaycanda 8,5 milyondan çox xırda və iribuynuzlu mal-qara olduğu halda, hazırda rəsmi məlumatlara əsasən xırdabuynuzlu heyvanların sayında 1,3-2 milyon baş arasında azalma müşahidə olunur. Bu isə bazarda ən çox istehlak olunan qida məhsullarından biri olan ətin qiymətinə birbaşa təsir göstərir. Əkinçilik sahəsində də vəziyyət ürəkaçan deyil. Azərbaycanda ərzaqlıq buğda istehsalı daxili tələbatın təxminən 52 faizini qarşılayır, qalan hissə isə idxal hesabına təmin edilir. Ölkə hər il neft-qaz sektorundan əldə olunan yüz milyonlarla vəsaiti müxtəlif ərzaq məhsullarının idxalına yönəltmək məcburiyyətində qalır. Bu baxımdan, Prezident İlham Əliyevin imzaladığı fərman və aqrar sektorun inkişafı istiqamətində nəzərdə tutulan yeni dövlət dəstəyi tədbirləri xüsusi əhəmiyyət daşıyır".



**Diqqət yalnız subsidiyaların əldə edilməsinə yönələrsə...**

X.Məmmədovun sözlərinə görə, bu gün Azərbaycanda aqrar sahənin dəstəklənməsi üçün kifayət qədər subsidiya mexanizmləri mövcuddur: "Azərbaycan kənd təsərrüfatına dövlət dəstəyinin səviyyəsinə görə dünyada ön sıralarda yer alan ölkələrdəndir. Lakin əsas məsələ bu imkanlardan necə istifadə edilməsidir. Burada dövlət qurumlarının, sahibkarların, fermerlərin, bankların və sahə üzrə fəaliyyət göstərən assosiasiyaların üzərinə ciddi vəzifələr düşür. İlk növbədə məhsuldarlığın artırılmasına nail olmaq lazımdır. Bitkiçilikdə bunun üçün aqrotexniki qaydalara düzgün əməl olunmalı, torpaqların münbitliyi yaxşılaşdırılmalı, su təminatı gücləndirilməlidir. Eyni zamanda toxumçuluğun inkişafı, gübrə və digər istehsal vasitələrindən elmi əsaslarla və səmərəli istifadə vacibdir. Heyvandarlıqda isə əsas diqqət məhsuldar cins heyvanların sayının artırılmasına yönəldilməlidir. Əgər diqqət yalnız subsidiyaların əldə edilməsinə yönələrsə və istehsalın əsasını təşkil edən məsələlər elmi yanaşma ilə həll olunmazsa, gözlənilən nəticələri əldə etmək çətin olacaq".

Mütəxəssis bildirir ki, kreditlərin verilmə mexanizmi də əhəmiyyətlidir: "İri məbləğli maliyyələşmə zamanı yalnız biznes-plan deyil, həm də müraciət edən şəxsin sahə üzrə təcrübəsi, idarəetmə bacarığı, komandası və təsərrüfatın mövcud infrastrukturu ciddi şəkildə qiymətləndirilməlidir. Eyni zamanda, bəzi hallarda girov təminatı yetərli olmadıqda dövlətin zəmanət mexanizmləri də işə düşür. Məsələn, bir milyon manatlıq kredit üçün tələb olunan girovun yarısı çatışmadıqda, həmin hissənin dövlət tərəfindən zəmanət altına alınması fermerin maliyyə resurslarına çıxışını asanlaşdırır. Bununla yanaşı, subsidiya sisteminin icrası ilə bağlı bəzi problemlər də mövcuddur. Xüsusilə yanacaq, gübrə və dərman vasitələrinə ayrılan subsidiyaların vaxtında çatdırılması və bu prosesdə monitorinq mexanizmlərinin təkmilləşdirilməsi vacib məsələlərdəndir".



Xaliq Məmmədov

# ARALIQ DƏNİZİNDƏ TƏSİR ŞAVAŞI

Emmanuel Makron Afrikada itirilmiş mövqelərini yeni mənbələr hesabına kompensasiya etmək istəyir. Kipr bu strategiyada ən uyğun seçim kimi ön plana çıxır. Parisin planları Ankarada etirazla qarşılanır.





AZƏR NURİYEV

Son illər beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər, Yaxın Şərqdə davam edən münaqişələr və Şərqi Aralıq dənizində geosiyasi rəqabətin güclənməsi Fransanı regionda daha fəal siyasət yürütməyə sövq edir. Paris Afrika qitəsində, xüsusilə Sahel bölgəsində təsir imkanlarının zəifləməsi fonunda yeni strateji dayaqlar axtarır. Bu baxımdan Kipr Fransanın diqqət mərkəzinə düşüb. Həftənin ən önəmli hadisələrindən biri Fransa ilə yunan Kipri arasında imzalanan hərbi əməkdaşlıq və SOFA (Status of Forces Agreement) sazişi olub. Bu, Parisin Şərqi Aralıq dənizi və Yaxın Şərq strategiyasında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Qərb mediası yazır ki, imzalanan yeni saziş Fransa hərbi qüvvələrinin Kipr ərazisində fəaliyyətinə hüquqi baza yaradır. Sənəd Fransa ordusunun adada yerləşdirilməsi, təlimlər keçirməsi, hərbi infrastrukturdan istifadə etməsi və birgə əməliyyatlarda iştirakını tənzimləyir.

### YAXIN ŞƏRQƏ ÇIXIŞ ÜÇÜN MÜHÜM PLATFORMA

Əvvəllər yunan Kipri ilə Fransa arasındakı əməkdaşlıq əsasən hərbi təlimlər və dəniz qüvvələrinin müvəqqəti səfərləri ilə məhdudlaşırdısa, indi münasibətlər daha sistemli və institusional xarakter alır.

Kipr coğrafi baxımdan Avropa, Asiya və Afrika qitələrinin kəsişməsində yerləşir. Ada Livan, Suriya, İsrail və Misirə yaxınlığı ilə Yaxın Şərqə çıxış üçün mühüm platforma hesab olunur. Son illərdə bölgədə baş verən hadisələr - Qəzza müharibəsi, İran-İsrail qarşıdurması, Suriyadakı qeyri-sabitlik və enerji resursları uğrunda rəqabət – adanın strateji əhəmiyyətini daha da artırıb. Fransanın müdafiə naziri Ketrin Votren də Kipri Fransanın Şərqi Aralıq dənizi və Yaxın Şərqdəki hərbi əməliyyatları üçün mühüm dəstək nöqtəsi kimi xarakterizə edib.

### KİPR-FRANSA YAXINLAŞMASININ ARXA PLANI

Son illərdə Kipr Respublikası ilə Fransa arasında münasibətlər nəzərəçarpacaq dərəcədə dərinləşib. Bu yaxınlaşmanın əsas səbəbləri Şərqi Aralıq dənizində təhlükəsizlik məsələləri, enerji layihələri, Aİ çərçivəsində əməkdaşlıq və regional geosiyasi maraqlardır. Ən mühüm istiqamətlərdən biri hərbi-siyasi əməkdaşlıqdır. Tərəflər dəniz təhlükəsizliyi, axtarış-xilasetmə əməliyyatları, pilotsuz uçuş aparatları və xüsusi təyinatlı qüvvələrin hazırlığı sahələrində əməkdaşlıq edirlər. 2025-ci ilin sonunda Fransa Prezidenti Emmanuel Makron və Kipr Prezidenti Nikos Xristodulidis iki ölkə arasında Strateji Tərəfdaşlıq Sazişi imzalayaraq münasibətləri yeni mərhələyə yüksəltdilər.

### YUNAN KİPRİ İLƏ MÜDAFİƏ ƏMƏKDAŞLIĞI YENİ MÖVZU DEYİL

Xatırladaq ki, Fransa ilə yunan Kipri arasında müdafiə əməkdaşlığı yeni deyil. Hələ 2017-ci ildə imzalanmış və 2020-ci ildə qüvvəyə minmiş müdafiə sazişi bir çox məsələləri əhatə edirdi. 2025-ci ilin sonlarında Parisdə imzalanmış Strateji Tərəfdaşlıq Sazişi və 2026–2030-cu illəri əhatə edən fəaliyyət planı Fransa-Kipr münasibətlərini sadəcə müdafiə əməkdaşlığından çıxararaq geniş təhlükəsizlik ittifaqına çevirmək istiqamətində mühüm addım olub. Bu çərçivədə Mari hərbi-dəniz bazasının genişləndirilməsi və Fransa hərbi gəmilərinin Şərqi Aralıq dənizində daimi mövcudluğu üçün şərait yaradılması nəzərdə tutulur.

Paris ada vasitəsilə Livan, Suriya, İsrail, Misir və Süveyş istiqamətində hərbi-logistika imkanlarını genişləndirmək niyyətindədir.



## TÜRKİYƏ VƏ ŞİMALİ KİPR NARAHATDIR

Geosiyasi baxımdan bu saziş Şərqi Aralıq dənizində qüvvələr balansına təsir göstərə biləcək addım kimi qiymətləndirilir. Türkiyə və Şimali Kipr haqlı olaraq sənədi tənqid edərək bunun regional gərginliyi artıra biləcəyini bildiriblər. Fransa-Kipr yaxınlaşmasının ən çox diqqət çəkən tərəflərindən biri onun Türkiyə ilə əlaqələrə təsiridir. Ankara uzun illərdir Kipr məsələsində öz mövqeyini qoruyur və Şərqi Aralıq dənizində enerji yataqları ətrafında yaranmış mübahisələrdə aktiv iştirak edir. Şimali Kipr Türk Respublikası sazişi narahatlıqla qarşılayaraq bildirib ki, belə təşəbbüslər adadakı iki icma arasında balansı poza və həll prosesinə mənfi təsir göstərə bilər. Baş nazir Ünal Üstel sazişin təkcə türk kiprlilərin deyil, uzunmüddətli perspektivdə yunan kiprlilərin də təhlükəsizliyi üçün risk yaratdığını bəyan edib. O, Fransanın bölgədə hərbi nüfuzunu genişləndirməyə çalışdığını və bunun Şərqi Aralıq dənizindəki həssas tarazlığı poza biləcəyini vurğulayıb. Ankaranın əsas etirazlarından biri ondan ibarətdir ki, Kipr məsələsi hələ də həll olunmamış qalır və adadakı türk icmasının razılığı olmadan atılan birtərəfli addımlar yeni gərginlik mənbəyi yarada bilər. Türkiyə hesab edir ki, Cənubi Kipr bütün adanı təmsil edən yeganə tərəf kimi davranaraq hərbi sazişlər imzaladıqda, bu vəziyyət Şimali Kiprin hüquq və maraqlarını nəzərə almır. Parisin həm Yunanıstan, həm də Kiprlə müdafiə əməkdaşlığını genişləndirməsi regionda yeni bloklaşma təəssüratı yaradır. Bu isə NATO müttəfiqləri arasında əlavə fikir ayrılıqlarına səbəb ola bilər. Türkiyənin mövqeyinə görə, bölgənin təhlükəsizliyi xarici hərbi qüvvələrin sayını artırmaqla deyil, bütün tərəflərin iştirak etdiyi dialoq və əməkdaşlıq mexanizmləri ilə təmin olunmalıdır.

Fransa və Kipr rəsmiləri isə əməkdaşlığın heç bir ölkəyə qarşı yönəlmədiyini, əsas məqsədin regional təhlükəsizlik, beynəlxalq hüquq və dəniz naviqasiyasının qorunması olduğunu vurğulayırlar.

Proseslər göstərir ki, Afrika qitəsində itirilən mövqelərin kompensasiya edilməsi, Aİ-də liderlik ambisiyalarının gücləndirilməsi və Yaxın Şərqdə təsir imkanlarının genişləndirilməsi Parisin əsas məqsədləri sırasındadır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# “SOCAR-IN FƏALİYYƏTİ XARİCİ BAZARLARA DOĞRU GENİŞLƏNİR”



## Mikayıl Cabbarov: “Bu gün SOCAR artıq yalnız emal infrastrukturunda deyil, hasilat sahəsində də xarici bazarlarda, müxtəlif layihələrdə pay əldə edir”.

“Bu gün SOCAR artıq yalnız emal infrastrukturunda deyil, hasilat sahəsində də xarici bazarlarda, müxtəlif layihələrdə pay əldə edir”.

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov İctimai Televiziyaya və Azərbaycan Dövlət İnformasiya Agentliyinə müsahibəsində bildirib. Nazir neft-qaz sektorunun iqtisadiyyatımızda çox böyük rola malik olduğunu bildirib: “Bu sektor ümumi daxili məhsulun (ÜDM) 30 faizini təşkil edir ki, bu da çox böyük bir göstəricidir. Digər tərəfdən, o, ölkə gəlirlərinin formalaşmasında mühüm rol oynayır”.

### “HASİLATIMIZIN PİK HƏDDİNİ 16 İL BUNDAN ƏVVƏL KEÇMİŞİK”

Nazir bildirib ki, neft hasilatımızın pik həddini 16 il bundan əvvəl keçmişik. Bu, 2010-cu ildə olub və ölkədə 51 milyon tona yaxın neft hasil edilib: “Müqayisə üçün qeyd edim ki, 2025-ci ildə bu göstərici 27,7 milyon ton təşkil edib. Bəli, o dövrlə müqayisədə təbii qazın hasilatı da əhəmiyyətli dərəcədə artıb. Lakin dəyər ifadəsi ilə yanaşsaq, bunlar bir-birini tam əvəzləyən amillər deyil. Mövcud yeni şəraitdə mən bu sahədəki strategiyamızı iki hissəyə bölərdim. Birincisi ondan ibarətdir ki, Azərbaycanda hələ də böyük həcmdə neft-qaz ehtiyatları var. Bizim yeni layihələrimiz də işə salınacaq, mövcud layihələrin isə davamlı fəaliyyəti təmin olunacaq. “Azəri-Çıraq-Günəşli” yatağından dərin qaz hasilatının başlanması, “Abşeron” layihəsinin tam miqyasda işlənilməsi, “Babək” yatağında hasilata başlanılması, “Ümid” yatağında ikinci fazanın icrası, “Bahar” və “Qum-Dəniz” layihələrindəki zəngin resursların istismarı, həmçinin “Qarabağ” layihəsi üzrə işlər fəal şəkildə davam etdirilir”.




### SOCAR MÜXTƏLİF LAYİHƏLƏRDƏ PAY ƏLDƏ EDİR

Nazir qeyd edib ki, indiyə qədər biz ölkəmizdə neft-qaz hasilatını ənənəvi üsullarla həyata keçirmişik: “Son onillikdə bu sahədə baş verən qeyri-ənənəvi hasilat metodlarını bu günə qədər tətbiq etməmişik, amma bunlar hazırda öyrənilir. Ölkəmizin ərazisində bununla bağlı müvafiq resurslar var. SOCAR ilə bir sıra xarici tərəfdaşlar arasında bu istiqamətdə müxtəlif anlaşma memorandumları və çərçivə sazişləri bağlanıb”.

Nazirin sözlərinə görə, strategiyanın ikinci hissəsi ondan ibarətdir ki, biz ölkəmizin bu sahədəki çoxəsrlik ənənələrini, bilik və bacarıqlarını, dünya və regional bazarlardakı mövqelərini itirmək niyyətində deyilik: “Məhz buna görə də bizim bu sahədəki aparıcı qurumumuz olan SOCAR-ın fəaliyyətinin son dövrlərdə xarici bazarlara doğru genişləndiyini, daha fəal şəkildə həyata keçirildiyini görürsünüz.

Lakin bu gün SOCAR artıq yalnız emal infrastrukturunda deyil, hasilat sahəsində də xarici bazarlarda, müxtəlif layihələrdə pay əldə edir. Bu il Birləşmiş Ərəb Əmirliklərində və ilk dəfə olaraq Afrika qitəsində - Kot-d’İvuarın böyük bir yatağında sərmayə layihələrinə start verilib, həmçinin İsraildə həyata keçirilən qaz hasilatı layihəsində iştirak təmin olunub və bu fəaliyyət davam etdiriləcək”.

### “BU FƏALİYYƏTLƏR DAVAMLI XARAKTER DAŞIYIR”

Nazir qeyd edib ki vəsaitin azalan hissəsini xarici bazarlarda aktiv fəaliyyət göstərib sərmayə yatırmaqla kompensasiya edirik. Bunun müqabilində mülkiyyət hüququ və səhmləri 100 faiz dövlətə məxsus olan şirkət ölkəmizə dividendlər gətirir: “Bu, xüsusi bir istiqamətdir və mən bu sırada bir çox uğurlu layihələri sadalaya bilərəm. Onlardan zaman baxımından ən yaxın olanı, İtaliya bazarında 35 faiz paya malik, iki neft emalı zavodu və bir neçə min yanacaqdoldurma stansiyasından ibarət nəhəng bir qurumun - “İtaliana Petroli” şirkətinin satın alınmasıdır. Həmçinin qardaş Özbəkistanda “Uzbekneftegaz” və bp ilə birlikdə Üstyurd yatağının işlənilməsinə dair sazişin imzalanmasını qeyd etmək olar. Yəni bu fəaliyyətlər davamlı xarakter daşıyır.

### NEFT-QAZ SAHƏSİNİN GƏLƏCƏYİ NİKBİNDİR

M.Cabbarov bildirib ki, yeni neft emalı zavodunun tikintisi barədə müvafiq qərar razılaşdırılıb: “Biz təxminən 5-6 il ərzində layihənin başa çatdırılmasını gözləyirik. Bu, tam müasir və artıq belə demək olarsa, günümüzün tələblərinə cavab verən neft emalı zavodu olacaqdır. Burada söhbət yalnız sənaye və ekoloji standartlardan deyil, həm də biznes model baxımından müasir tələblərə uyğunluqdan gedir. Zavod maye yanacaq məhsulları ilə yanaşı, neft-kimya məhsullarının yeni nəslini də istehsal edəcək”.




# “Nar”abunəçiləri üçün yenilik

Sərfəli xidmətləri ilə tanınan “Nar” abunəçiləri artıq eSIM texnologiyası vasitəsilə “Asan İmza” rəqəmsal imza xidmətindən istifadə edə bilərlər. İstifadəçilər xidmətlə bağlı bütün vacib məlumatları “Nar+” mobil tətbiqi vasitəsilə operativ şəkildə izləyə, eyni zamanda fiziki SIM kartdan eSIM formatına asanlıqla keçərək 2500-dən çox elektron xidmətə təhlükəsiz və rahat çıxış əldə edə bilərlər.

eSIM üzərindən təqdim olunan bu xidmət yüksək təhlükəsizlik standartlarını qoruyaraq fiziki SIM kartın itirilməsi və ya oğurlanması riskini aradan qaldırır, eyni zamanda plastik kartlardan istifadəyə ehtiyacı azaltmaqla istifadəçilərə bir cihazda bir neçə nömrəni aktivləşdirmək imkanı yaradır.

Qeyd edək ki, bu xidmət fiziki və hüquqi şəxslər üçün 3 il müddətinə təqdim olunur. Aktivləşdirmə “Nar” Müştəri Xidmətlərində həyata keçirilir. eSIM əsaslı “Asan İmza” xidmətinin aktivləşdirmə zamanı PIN kodları əvvəlcədən təqdim edilmir, abunəçilər bu kodları ilk autentifikasiya və ya imzalama prosesi zamanı onlayn şəkildə təyin edirlər. PIN kodların blokdan çıxarılması isə 1847 – “Asan İmza” Çağrı Mərkəzi vasitəsilə onlayn qaydada təmin olunur.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 745
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ERMƏNİSTANDAKI SEÇKİLƏRDƏ AZƏRBAYCAN AMİLİ

Son seçkilər Ermənistan cəmiyyətinin sülh prosesinə nə dərəcədə hazır olduğunu ortaya qoydu. Bu imtahanın nəticələri müəyyən məqamlar nəzərə alınmaqla kafi olaraq dəyərləndirilə bilər.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



İyunun 7-də Ermənistanda keçirilən parlament seçkilərinin qalibi gözlənildiyi kimi Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi siyasi qüvvələr oldu. Bu seçkilər özünün gərginliyi, tamamilə əks qütblərlə əməkdaşlıq planları quran siyasi qüvvələrin mübarizəsi, daha çox isə Moskva ilə Brüsselin qarşıdurması kimi xarakterizə edilirdi. Azərbaycan üçün seçkilər Ermənistan cəmiyyətinin sülh prosesinə tamam, yoxsa davam deməyi baxımından əhəmiyyət daşıyırdı.

Seçkidən öncə istər Qərbin, istərsə də Rusiyanın özünə yaxın hesab etdiyi siyasi qüvvələrə açıq dəstək verməsi müşahidə edilirdi. Proseslərə heç bir müdaxilə etməyərək kənardan müşahidə modelinə üstünlük verən Azərbaycan üçün yuxarıda qeyd edilən məqamlar ən azından həmin mərkəzlərin Cənubi Qafqaz və sülh gündəliyinə yanaşmasının konturlarını bir daha nəzərdən keçirtmək üçün əlavə fürsət yaratdı.

### SEÇKİNİN NƏTİCƏLƏRİNƏ BEYNƏLXALQ REAKSİYA

Seçkilərin nəticələri sülh prosesinin davamlı olacağına dair ümidlər yaradıb. Lakin revanşist qüvvələrin siyasi fəallığı fonunda Ermənistan cəmiyyətində hələ də təhlükəli tendensiyaların qaldığı ciddi şəkildə özünü büruzə verməkdədir. Bu baxımdan, iqtidar savaşında əsas gündəliyin məhz Azərbaycan amili olması xüsusilə diqqət çəkir. Əgər seçki təbliğatı dövrünə nəzər yetirsək, ölkənin daxili problemlərindən daha çox məhz Azərbaycanla aparılan danışıqlar, sülh prosesi ilə bağlı məqamlar ətrafında daha ciddi müzakirələrin getdiyini görərik.

Nikol Paşinyanın əsas şüarı “sülh, yoxsa müharibəyə səs verəcəksiniz?” çağırışı idisə, revanşistlər artıq tarixə qovuşmuş Qarabağ kartını gündəmə gətirməyə çalışdılar. Ölkənin iqtisadi, sosial inkişafını nəzərdə tutan proqramlar əvəzinə erməni seçicilərini Azərbaycan amili ilə qorxudaraq revanşist meylləri yönləndirməyə cəhd etdilər. Bu tapşırıqların hansı mərkəzdən idarə olunduğu, arxasında hansı məkrli planların dayandığı isə heç kimə sirr deyil.

Bu yanaşma özünü seçkilərin nəticələri elan olunandan sonra beynəlxalq reaksiyalarda da büruzə verdi. Qərb bloku Nikol Paşinyanı təbrik edərək seçkilərin nəticələrini tanıdığı açıq şəkildə bəyan etdi. Rusiya isə hələlik tələsmir. Əksinə, proseslə bağlı narazılığını dilə gətirərək, seçki prosesinin nəticələrini şübhə altına almağa çalışır. Kreml rəhbərliyinin Ermənistan Baş nazirini hələ də təbrik etməməsi əslində bir çox məqamlardan xəbər verir.

## De-fakto sülh dayanıqlılığı davam edəcək



Bütün bu məqamlar nəzərə alındıqda Azərbaycan üçün seçkilərin nəticələrinə dair müəyyən qənaətə gəlmək mümkündür. Nikol Paşinyanın qələbəsi ən azından de-fakto sülh dayanıqlılığının davam edəcəyindən xəbər verir. İrəvan və Bakı arasında nəzərdə tutulan təmaslar, qarşılıqlı görüşlər və səfərlər davam edəcək. Zəngəzur dəhlizi – TRIPP marşrutunun reallaşması, sərhədlərin delimatisiyası prosesinin də davamlılığı təmin olunacaq. Çünki bu məqamlar Nikol Paşinyanın seçki gündəliyinin əsasını təşkil edib. Ona səs verənlər isə bu layihələrin tezliklə həyata keçirilməsində maraqlıdırlar.

### REVANŞİSTLƏRİN SÜLHÜ POZMAQ PLANLARI

Bununla belə, parlamentdə təmsilçilik hüququ əldə edən revanşistlər və sülh prosesinə qarşı olanların müəyyən əngəllər yaratmaq cəhdləri də unudulmamalıdır. Ən azından, de-fakto sülhün tamamilə legitimlik qazanması üçün Ermənistan Konstitusiyasında ərazi iddialarının ortadan qaldırılması prosesində çətinliklərin yaranacağı istisna edilməməlidir. Seçkilərdən sonra müxalifət təmsilçilərinin bu fonda bəyanatları da mövcuddur. Onlar açıq şəkildə Azərbaycanla mövcud şərtlər daxilində sülhün imzalanmasına imkan verməyəcəklərini, Konstitusiya dəyişikliyini əngəlləyəcəklərini bildirirlər.

## Biz doğru bildiyimiz yoldan dönməməliyik

Rəsmi Bakının mövqeyi isə hər zaman olduğu kimi özünün davamlılığı və dəyişməzliyi ilə seçilir. Seçkinin nəticələrindən asılı olmayaraq, ərazi iddialarına son qoyulmalı, Zəngəzur dəhlizi açılmalıdır. Çünki Azərbaycan dövləti sülhü Ermənistan hökumət ilə yox, məhz erməni xalqı və dövləti ilə imzalayacaq. Son seçkilər isə Ermənistan cəmiyyətinin sülh prosesinə nə dərəcədə hazır olduğunu ortaya qoydu. Bu imtahanın nəticələri müəyyən məqamlar nəzərə alınmaqla kafi olaraq dəyərləndirilə bilər. Lakin Prezident İlham Əliyevin də vurğuladığı kimi, biz doğru bildiyimiz yoldan dönməməliyik. Bu yol isə güclü orduya, güclü iqtisadiyyata, sabit və davamlı inkişafa, müstəqil xarici siyasətə malik olmaqdır. Azərbaycan işğaldan azad edilmiş ərazilərə keçmiş məcburi köçkünlərin layiqli qayıdışını davam etdirməli, hərbi-siyasi üstünlüyünü qorumalı və sülh prosesində meydana çıxa biləcək təhdidləri ortadan qaldırmaq qüdrətini inkişaf etdirməlidir. Çünki bölgəmizdə yaranan sülh reallığının əsas təkanverici qüvvəsi məhz Azərbaycan olub. Bu prosesin milli maraqlarımız çərçivəsində irəlilədilməsi isə başlıca şərtdir.

# VALİDEYNLƏRİN "PAYLAŞIM" SEVDASI

Valideynlərin övladlarının fotolarını, videolarını virtual məkanda nümayiş etdirmələri artıq adi hal alıb. Sadə bir sevincin bölüşülməsi kimi görünən bu paylaşımlar, əslində uşaqların ləyaqətinin qorunması, hüquqi məsuliyyət və kibertəhlükəsizlik kimi problemləri də özü ilə gətirir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Müasir rəqəmsal dövrün həyatımıza gətirdiyi ən kütləvi vərdişlərdən biri də gündəlik anlarımızı sosial şəbəkələrdə bölüşməkdir. Bu tendensiyanın ən həssas və mübahisəli tərəfi isə valideynlərin öz övladlarının fotolarını, videolarını və şəxsi məlumatlarını mütəmadi olaraq virtual məkanda nümayiş etdirmələridir. Qanunvericiliyə əsasən, uşaqların üzlərinin və şəxsiyyətlərini müəyyən edən məlumatların ənənəvi mediada açıq göstərilməsi qadağan olsa da, sosial şəbəkələrdə bu sərhədlər pozulur. Valideynlər bəzən övlad sevgisindən, bəzən isə rəqəmsal trendlərə ayaq uydurmaq həvəsindən uşaqların ən məhrəm anlarını belə geniş auditoriya ilə paylaşırlar. Bəs bu kütləvi hal zərərsizdirmi? Uşağın xəbəri və razılığı olmadan edilən bu paylaşımlar onun şəxsi həyatının toxunulmazlığına, gələcək psixologiyasına və təhlükəsizliyinə hansı riskləri yaradır?

### "UŞAQ HÜQUQLARININ POZULMASINA GƏTİRİB ÇIXARA BİLƏR"

Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin mətbuat katibi Teymur Mərdanoğlunun sözlərinə görə, bu paylaşımlara birmənalı şəkildə "normaldır" və ya "qadağandır" demək doğru olmasa da, bəzi hallarda onların uşaq hüquqlarının pozulmasına gətirib çıxardığı danılmazdır. Xüsusilə uşağın ləyaqətinə xələl gətirən, onu həssas vəziyyətdə göstərən, gələcəkdə psixoloji narahatlıq yarada biləcək paylaşımlar qəbuledilməzdir: "Görüntülərin geniş auditoriyaya açıq yayılması uşağın şəxsi həyatının toxunulmazlığını poza, gələcəkdə sosial və psixoloji çətinliklərə zəmin yarada bilər. Rəqəmsal mühitdə məlumatların nəzarətsiz yayılması riski xüsusi diqqətdə saxlanılmalıdır".

### "DAHA MÜASİR TƏNZİMLƏMƏLƏRƏ EHTİYAC DUYULUR"

T.Mərdanoğlu bildirdi ki, Azərbaycan qanunvericiliyi uşaqların şəxsi həyatını və məxfiliyini qoruyur. Görüntülərin yayılması uşağın maraqlarına zidd olduqda hüquqi məsuliyyət yarada bilər: "Media üçün konkret məhdudiyyətlər mövcud olsa da, sosial mediada valideyn paylaşımları əsasən ümumi hüquqi prinsiplərlə tənzimlənir. Rəqəmsal mühitin yaratdığı riskləri nəzərə alaraq daha müasir tənzimləmələrə ehtiyac duyulur. Lakin ümumi qadağaların tətbiqi mürəkkəb prosesdir. Valideyn uşağın qanuni nümayəndəsi olsa da, bu, hüquqları istənilən formada məhdudlaşdırmaq səlahiyyəti vermir. Əsas meyar paylaşımın uşağa zərər verməməsidir. İnkişaf etmiş ölkələrdə uşaqların məxfiliyi ilə bağlı yanaşmalar daha həssasdır. Bəzi hallarda valideyn paylaşımları hüquqi mübahisəyə çevrilir, uşağın razılığı ön plana çəkilir. Xarici təcrübənin ölkəmizdə tətbiqi mümkündür, lakin proses mərhələli olmalıdır".




Kəmalə Aşumova

## "Tərəddüd varsa, paylaşmayın"

T.Mərdanoğlu komitəyə belə hallarla bağlı müraciətlərin daxil olduğunu bildirdi. Müraciətlər araşdırılır və uşağın maraqları əsas götürülərək tədbirlər görülür: "Tövsiyəmiz budur ki, hər paylaşımda "Bu, uşağımın bu günü və gələcəyi üçün doğrudanmı təhlükəsizdir?" sualını verin. Tərəddüd varsa, paylaşmamaq ən doğru seçimdir".

"Ümidli gələcək" İctimai Birliyinin icraçı direktoru Kəmalə Aşumova bildirdi ki, uşaqların şəxsi məlumatlarının, xüsusilə də üz görüntülərinin sosial mediada yayılması hüquqi və etik baxımdan ciddi narahatlıq doğurur: "Uşaq hüquqları haqqında" qanunun 17-ci maddəsinə əsasən, hər bir uşağın şəxsi və ailə həyatının sirri qorunur. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, uşağın foto və video çəkilişinə məruz qoyulması, o cümlədən bu materialların yayılması yolverilməzdir. Həmçinin 18-ci maddə uşağın şərəf və ləyaqətinin müdafiəsini təmin edərək, internetdə ona zərər vura biləcək hər cür davranışı qadağan edir. Qanunun 38-ci maddəsinə görə, valideynlər uşağın hüquq və mənafelərini qorumağa borcludurlar. Yəni, valideynlərin paylaşım hüququ mütləq xarakter daşımır və uşağın üstün mənafeyi ilə məhdudlaşır. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna əsasən, uşağın şəkli fərdi məlumat hesab olunur. Bu məlumatların yayılması şəxsi həyatın toxunulmazlığını pozmamalıdır. Uşaqlar həssas qrup olduqları üçün bu yanaşma onlara daha sərt tətbiq edilir, valideynin paylaşım azadlığı uşağın məxfiliyi ilə çərçivələnir".

K.Aşumovanın sözlərinə görə, rəqəmsal mühitdə yayılan məlumatlar uzun müddət silinmir və üçüncü şəxslər tərəfindən sui-istifadə edilə bilər. Bu, kiberzorakılıq və saxta profillərin yaradılması kimi pozuntular üçün zəmin yaradır.

## "Uşaq valideyninə qarşı məhkəmə iddiası qaldıra bilər"

Vəkil Turan Abdullazadə də hesab edir ki, uşaqların şəkillərinin sosial mediada kütləvi paylaşılması ciddi psixoloji və təhlükəsizlik riskləri daşıyır: "Hər bir fərdin məxfilik hüququ var. Uşaq razılıq verə bilmədiyi üçün qərarı valideyn versə də, bu addım uşağın ali mənafelərinə zidd olmamalıdır. Konstitusiyamıza və qanunvericiliyə əsasən, hər kəsin şəxsi toxunulmazlıq hüququ var, şəxsin fotosu yalnız razılığı (uşaqlarda isə qanuni nümayəndənin razılığı) ilə yayıla bilər. Uşağın ləyaqətini alçaldan kadrlar mübahisələndirilə, hətta uşaq yetkinlik yaşına çatdıqda valideyninə qarşı məhkəmə iddiası qaldıra bilər. Praktikada zərəri sübut etməyin çətinliyi və ölkəmizdə məhkəmə presedentinin yoxluğu bu prosesi mürəkkəbləşdirsə də, paylaşımlar uşağın karyerasına və psixologiyasına zərər vurursa, o, kompensasiya və məzmunun silinməsini tələb edə bilər. Məsələn, 2023-cü ildə Fransada gənclərin valideynlərini uşaqlıq fotolarına görə məhkəməyə verməsi praktikası başlanıb".

T.Abdullazadənin fikrincə, adi və kommersiya xarakterli paylaşımlar arasında da ciddi hüquqi fərqlər var. Sponsorlu postlar və ailə bloqu formatında uşağın təsvirinin gəlir mənbəyinə çevrilməsi yeni mübahisələr yaradır: "Ailə Məcəlləsinə görə, uşaqla bağlı məsələlər valideynlərin qarşılıqlı razılığı ilə həll olunur. Gündəlik paylaşımlarda digər valideynin razılığı birmənalı tələb olunmasa da, kommersiya məqsədli hallarda bu, tələb oluna bilər. Məsələn, ana uşağı brend simasına çevirirsə və ata razı deyilsə, o, uşağın hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət edə bilər. Burada potensial uşaq əməyindən yararlanılır və gəlir uşağa aid edilməlidir. Bütün bunlara baxmayaraq, hazırda Azərbaycan qanunvericiliyində belə hallar dəqiq tənzimlənmir".


Teymur Mərdanoğlu


Turan Abdullazadə

Foto: Sabir Məmmədov/ Global Photostock

# SÜNİ İNTELLEKT: POTENSİAL VƏ GERÇƏKLİK

Süni intellektdən istifadəyə dair ölkələrin reytinqində Azərbaycan 62-ci yerdə qərarlaşıb. Ekspertlər bunu sözügedən sahədə başlanğıc nöqtəsi kimi qəbul edirlər. Hədəf isə daha böyükdür.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




**Süni intellekt reytinqində 62-ci yer normaldırmı?**

2026-cı ilin ilk rübü üzrə süni intellektdən (Sİ) istifadəyə dair ölkələrin reytinqi açıqlanıb. Reytinqdə Azərbaycan 17,7 faiz göstərici ilə 62-ci yerdə qərarlaşıb. Gürcüstan 20,5 faizlə 54-cü, Türkiyə 17,4 faizlə 65-ci, Qazaxıstan 15,9 faizlə 70-ci pillədə yer alıb. Reytinqə liderliyi isə Birləşmiş Ərəb Əmirlikləri edir. Belə ki, ölkədə əmək qabiliyyətli əhalinin 70,1 faizi süni intellektdən aktiv istifadə edir.

Bəs bu nəticə Azərbaycanın süni intellektdən istifadə səviyyəsi barədə nə deyir?

### "NƏ FƏLAKƏTDİR, NƏ DƏ QƏNAƏTBƏXŞ..."

Kibertəhlükəsizlik və süni intellekt üzrə ekspert Azər Əlili bildirdi ki, reytinqdəki 62-ci mövqe nə fəlakətdir, nə də qənaətbəxşdir. Bu, start mövqeyidir və ölkəmizin obyektiv reallığını əks etdirir: "Azərbaycan regional rəqibləri ilə müqayisədə Türkiyə və Qazaxıstandan irəlidə, Gürcüstandan isə cüzi geridədir. Liderlik edən BƏƏ-də bu göstərici 70,1%, Sinqapurda 63,4%-dir. Bu ölkələr son 10 ildə süni intellekti milli prioritet elan ediblər. Azərbaycan milli süni intellekt strategiyasını yalnız 2025-ci ilin martında təsdiqlədi. Yəni biz ilk rüb göstəricisini strategiyanın icrasının cəmi bir neçə ayında ölçürük. Hər hansı dövlət siyasətinin əmək bazarına və istifadə mədəniyyətinə təsiri 18-24 ay ərzində özünü göstərir. Bu kontekstdə 17,7% göstəricisi real başlanğıc nöqtəsidir".

### SÜNİ İNTELLEKTİN İNKİŞAFI ÜÇÜN BEŞ ƏSAS İSTİQAMƏT

Mütəxəssis bildirir ki, daha yüksək mövqeyə çıxmaq üçün beş istiqamətdə paralel iş aparılmalıdır: "Birincisi, kütləvi maarifləndirmə və savadlılıqdır. Süni intellekt yalnız İT mütəxəssislərinin alətinə deyil, müəllimin, həkimin, mühasibin, kiçik biznes sahibinin gündəlik alətinə çevrilməlidir. Bu istiqamətdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəzdində fəaliyyətə başlamış "AI Academy" xüsusi əhəmiyyət daşıyır. Akademiya tam təqaüd əsasında işləyir. Strategiyaya əsasən 500 dövlət mühəndisi və 3000 nəfərlik milli süni intellekt icmasının formalaşdırılmasını hədəfləyir. İkincisi, Azərbaycan dilində Təbii Dil Emalı (NLP) modelləridir. Bu, kritik məsələdir. Beynəlxalq modellər Azərbaycan dilini hələ tam yetərincə dəstəkləmir. Strategiyada bu nöqtə xüsusi vurğulanıb və Milli Süni İntellekt Mərkəzi bu istiqamətdə fəal işləyir. Üçüncüsü, nazirliklərdə süni intellekt məsuliyyətidir. Prezidentin təsdiqlədiyi Rəqəmsal İnkişafın Sürətləndirilməsi üzrə Tədbirlər Planına əsasən, hər nazirlikdə rəqəmsallaşma, innovasiya və süni intellekt üzrə nazir müavini təyin olunacaq. Bu, dünyada nadir tətbiq olunan və institusional səviyyədə süni intellektə sahiblik yaradan addımdır. Dördüncüsü, özəl sektor üçün stimullardır. Texnologiya parklarında Sİ istehsalının genişləndirilməsi, startaplara və KOB-lara maliyyə güzəştləri nəzərdə tutulur. Beşincisi isə, beynəlxalq inteqrasiyadır. 2026-cı il fevralın 10-da imzalanmış Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasında süni intellekt və rəqəmsal infrastruktur açıq şəkildə əməkdaşlığın əsas sütunlarından biri kimi göstərilib. BƏƏ-nin "Presight" şirkəti ilə imzalanmış Anlaşma Memorandumu da bu istiqamətdə mühüm addımdır".



Azər Əlili

## "Hazırda çətinlik texnologiya ilə bağlı deyil"

A.Əlili deyir ki, hazırda əsas çətinliklər mədəniyyət və adaptasiya tempi ilə bağlıdır: "Texnoloji infrastruktur baxımından Azərbaycan son illərdə çox ciddi sıçrayış edib. Hökumətin Süni İntellektə Hazırlıq İndeksində Azərbaycan bir ildə 41 pillə irəliləyib. Bu, dünya təcrübəsində nadir göstəricidir. Çatışmayan element gündəlik istifadə vərdişidir. Şirkət rəhbərləri, orta menecerlər, kiçik biznes sahibləri süni intellekti hələ də "İT mövzusu" kimi qəbul edirlər, ekzosistemik alət kimi yox. Bunu dəyişdirmək üçün texnoloji deyil, psixoloji və təhsil səviyyəsində iş aparılmalıdır. İkinci məsələ isə kibertəhlükəsizlik mədəniyyətidir. Süni intellektdən sürətlə istifadə etmək istəyən təşkilatlar çox vaxt məlumat qorunması, model risklərinin idarə edilməsi və nəzarətsiz istifadə məsələlərini gec dərk edirlər".

"Qısa müddətdə Azərbaycanın bu reytinqdə yüksəlməsi realdırmı?" sualına gəldikdə isə, mütəxəssis bildirdi ki, bu, mümkündür: "Azərbaycan göstəricini 25-30% diapazonuna çatdıra bilər. Orta müddətdə (3-4 il) isə strategiyanın hədəfləri tam yerinə yetirilərsə 40%-dən yuxarı göstərici və 30-35-ci yerlər diapazonu real hədəfdir".

## Bu sahədə "Milli Data Strategiyası" qəbul edilməlidir"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası İctimai Birliyinin sədri Elvin Abbasov deyir ki, mövcud infrastruktur və startap ekosisteminin hazırkı inkişaf dinamikasını nəzərə alsaq, bu nəticə rəqəmsal transformasiya üçün başlanğıc platforması hesab oluna bilər. Lakin ölkənin iqtisadi potensialı və regional liderlik hədəfləri baxımından qaneedici səviyyə deyil: "Daha üst sıralara yüksəlmək üçün ilk növbədə böyük verilənlərin təhlükəsiz emalını tənzimləyən "Milli Data Strategiyası" qəbul edilməli, milli dil modellərinin (LLM) yaradılması üçün infrastruktur qurulmalı və təhsil sistemində data analitikası sahəsi sənaye tətbiqli layihələrlə yenidən formalaşdırılmalıdır. Bununla paralel olaraq, süni intellekt yönümlü yerli texnoloji həllərə və rəqəmsal xidmət ixracatçılarına xüsusi vergi-gömrük güzəştlərinin tətbiq edilməsi, həmçinin dövlət-özəl tərəfdaşlığı modellərinin stimullaşdırılması kəskin sıçrayışı təmin edəcək əsas hərəkətverici mexanizmlərdir".

E.Abbasov bildirir ki, süni intellekt sahəsi yüksək rəqəmsal çeviklik tələb etdiyindən, hədəflənmiş institusional islahatlarla yaxın 1-2 il ərzində reytinqdə 20-30 pillə irəliləmək tamamilə realdır.



Elvin Abbasov

**Foto:** Sabir Məmmədov/Global Photostock

# PUA-LARIN İSTİFADƏSİNDƏ YENİ QAYDALAR

Avtonom pilotsuz uçuş aparatı insan tərəfindən birbaşa idarə olunmadan, əvvəlcədən proqramlaşdırılmış marşrut üzrə hərəkət edən hava nəqliyyatı vasitəsi hesab ediləcək.




SEVİNC ABBASOVA

Azərbaycanda pilotsuz uçuş aparatlarının istifadəsində yeni mərhələ başlayır. Milli Məclisdə müzakirə olunan "Aviasiya haqqında" qanuna dəyişikliklər avtonom pilotsuz uçuş aparatlarının (PUA) fəaliyyətini ilk dəfə geniş şəkildə tənzimləməyi nəzərdə tutur. Layihə qəbul edilərsə, mülki təyinatlı avtonom dronların uçuşları daha ciddi nəzarət altında olacaq, onların fəaliyyəti üçün yeni icazə və təhlükəsizlik mexanizmləri tətbiq ediləcək.

### UÇUŞLAR REAL VAXT REJİMİNDƏ İZLƏNƏCƏK

Qanun layihəsinə əsasən, avtonom pilotsuz uçuş aparatı insan tərəfindən birbaşa idarə olunmadan, əvvəlcədən proqramlaşdırılmış marşrut üzrə hərəkət edən hava nəqliyyatı vasitəsi hesab ediləcək. Bununla belə, sistem tamamilə nəzarətsiz olmayacaq. Hər bir avtonom dronun fəaliyyətinə xüsusi şəhadətnaməyə malik operator nəzarət etməlidir. Operatorun vəzifəsi sistemin işini izləmək, təhlükə yarandıqda müdaxilə etmək və zərurət olduqda uçuşu dayandırmaq olacaq.

Yeni qaydalara görə, avtonom dronlar istədikləri ərazidə fəaliyyət göstərə bilməyəcəklər. Uçuşlar yalnız dövlət qurumlarının müəyyən etdiyi xüsusi coğrafi zonalarda həyata keçiriləcək. Bu zonalar interaktiv xəritədə göstəriləcək və operatorlar həmin məlumatları davamlı izləməli olacaqlar.

Layihənin ən diqqətçəkən məqamlarından biri də uçuş məlumatlarının real vaxt rejimində dövlətin informasiya sisteminə ötürülməsi tələbidir. Operatorlar dronun hərəkəti və fəaliyyəti ilə bağlı məlumatları aidiyyəti qurumlara təqdim etməli, eyni zamanda bu məlumatları ən azı altı ay müddətində saxlamalı olacaqlar.


Vüqar Bayramov

## DRONLARIN FƏALİYYƏTİ DAHA DA ŞƏFFAF OLACAQ

Qanun layihəsində kibertəhlükəsizlik məsələlərinə də xüsusi yer ayrılıb. Sənədə görə, dronların proqram təminatı kənar müdaxilələrə qarşı dayanıqlı olmalı, sistemlərdə nasazlıq yarandıqda belə təhlükəsiz idarəetmə imkanları qorunmalıdır. Bundan başqa, məsafədən idarəetmə mərkəzlərinin proqram təminatının mütəmadi yenilənməsi, təhlükəsizlik auditlərinin keçirilməsi və mümkün kiberhücumlara qarşı müdafiə tədbirlərinin görülməsi tələb olunur.

Yeni qaydalar uçuş icazələri ilə bağlı prosedurları da müəyyənləşdirir. Nəzarət olunan hava məkanında və aerodromların yaxınlığında uçuş həyata keçirmək istəyən operatorlar əvvəlcədən xüsusi icazə almalıdırlar. Bunun üçün uçuşdan azı üç saat əvvəl müvafiq sənədlər və məlumatlar təqdim edilməlidir.

Layihədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan dron operatorlarına nəzarət mexanizmləri də nəzərdə tutulub. Müvafiq sertifikat almış şirkətlərin qanunvericiliyin tələblərinə əməl edib-etmədiyi yoxlanılacaq. Beləliklə, kommersiya məqsədilə istifadə olunan avtonom dronların fəaliyyəti də daha şəffaf və nəzarətli olacaq.

### AVTONOM GƏMİLƏR FƏALİYYƏTƏ BAŞLAYACAQ

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qanuna təklif edilən dəyişiklikləri "Kaspi"yə şərh edərək bildirib ki, yeni tənzimləmələr yalnız pilotsuz uçuş aparatlarını deyil, eyni zamanda avtonom gəmilərin istifadəsini də əhatə edəcək geniş hüquqi çərçivənin formalaşmasına xidmət edir. Onun sözlərinə görə, Azərbaycanda kənardan idarə olunan, yəni avtonom gəmilərin istifadəyə verilməsi gözlənilir ki, bu da ümumilikdə avtonom nəqliyyat vasitələrinin sayının artmasına imkan yaradacaq.

Deputat qeyd edib ki, artıq 50-dən çox ölkədə avtonom nəqliyyat vasitələrindən istifadə olunur və Azərbaycan da bu praktikaya uyğun olaraq həm bu texnologiyaların tətbiqini genişləndirir, həm də paralel olaraq nəzarət mexanizmlərini gücləndirir. Dəyişikliklərin əsas mahiyyəti məsuliyyət bölgüsünün dəqiq müəyyənləşdirilməsi və nəzarət sisteminin gücləndirilməsidir.

### YENİ QAYDALAR HAZIRLANACAQ

V. Bayramov vurğulayıb ki, bu sahədə dövlətlə yanaşı, özəl sektor da aktiv iştirak edir və pilotlar, operatorlar, eləcə də şirkətlərin məsuliyyəti hüquqi çərçivədə dəqiq müəyyən edilməlidir. Onun fikrincə, qanun layihəsi məhz bu tələbləri sistemləşdirir. "Bununla yanaşı, dəyişikliklərdən sonra əlavə qaydaların hazırlanması da nəzərdə tutulur. Hazırlanacaq qaydalarla biz bu sahədə nəzarətin daha da güclənməsini və məsuliyyətin artmasını müşahidə edəcəyik", – deyə o əlavə edib.

Deputat bildirib ki, ümumi tendensiya avtonom nəqliyyat vasitələrinə tələbin artmasıdır. Xüsusilə inkişaf etmiş ölkələrdə bu sahə artıq geniş tətbiq olunur və biznes baxımından cəlbedici istiqamət hesab edilir. Özəl sektor da bu sahəyə investisiya yatırmaqda maraqlıdır.

### İNNOVATİV MÜHİTİN QORUNMASI VACİB SAYILIR

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İctimai Şuranın sədr müavini Qalib Qurbanov da bu addımı həm təhlükəsizlik, həm də texnoloji inkişaf baxımından əhəmiyyətli hesab edir. Onun fikrincə, müasir dövrdə PUA-ların rolu sürətlə artır və bu texnologiyalar artıq təkcə mülki sahədə deyil, həm də hərbi və strateji istiqamətlərdə ciddi təsir gücünə malikdir. "Son konfliktlərin təhlili göstərir ki, bir çox ənənəvi silah sistemləri artıq əvvəlki effektivliyini itirir. PUA-lar daha ucuz başa gəlməklə yanaşı, yüksək dəyərə malik hədəflərə ciddi zərər yetirir. Bu səbəbdən sözügedən sahəyə nəzarətin gücləndirilməsi obyektiv zərurətdir", – deyə o bildirib.

Ekspert dəyişiklikləri təhlükəsizlik risklərinin idarə olunması baxımından düzgün yanaşma kimi qiymətləndirsə də, paralel olaraq innovasiya mühitinin qorunmasının vacibliyini də xüsusi vurğulayıb. Onun sözlərinə görə, tənzimləmələr elə olmalıdır ki, həm dövlət təhlükəsizliyi təmin olunsun, həm də startaplar və gənc mühəndislər üçün inkişaf imkanlarıməhdudlaşmasın.

Q. Qurbanov hesab edir ki, düzgün tətbiq olunacağı təqdirdə bu dəyişikliklər həm təhlükəsizlik sistemini gücləndirəcək, həm də ölkədə avtonom texnologiyaların inkişafına təkan verəcək.


Qalib Qurbanov

# MÜƏLLİM HAZIRLIĞINDA YENİ MƏRHƏLƏ

**Bu ildən bəzi universitetlər üçün qəbul planının azaldılması gözlənilir. Xüsusilə də pedaqoji ixtisasların azaldılması məsələsi gündəmdədir. Ekspertlər bu prosesin qaçılmaz olduğu qənaətindədirlər.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Əmək bazarında tələbatın az olduğu ixtisaslar üzrə plan yerlərinin mərhələli şəkildə azaldılacağı barədə xəbərlər yayılır. Bu kontekstdə pedaqoji ixtisasların azaldılması məsələsi də gündəmə gəlir. Elm və təhsil naziri Emin Əmrullayev keçən il Milli Məclisdə çıxışı zamanı bəzi universitetlərə tələbə qəbulu sayının azaldılmasının təhsildə keyfiyyətin artırılması niyyəti ilə əlaqələndirib. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, növbəti tədris ilindən etibarən 9 və 11 illik təhsil bazasında orta ixtisas təhsili müəssisələrində fiziki tərbiyə istiqaməti üzrə kadr hazırlığı aparılmayacaq. Media pedaqoji ixtisasların azaldılacağı barədə xəbərləri "Müəllimlərə bəd xəbər" başlığı ilə yayır.

### NEÇƏ MÜƏLLİM YOX, NECƏ MÜƏLLİM...

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) rəhbəri Pərvinə Qədimova hesab edir ki, bu məsələyə emosional deyil, strateji yanaşmaq lazımdır: "Əslində burada məqsəd müəllim sayını azaltmaq deyil, müəllim hazırlığında keyfiyyəti artırmaqdır. Əmək bazarının tələbinə uyğun olmayan, zəif akademik göstəricilərlə müəllim hazırlayan, maddi-texniki bazası və akademik potensialı kifayət etməyən proqramların yenidən nəzərdən keçirilməsi zəruridir".



AGMA sədri bildirir ki, uzun illər ərzində bəzi ali təhsil müəssisələrində pedaqoji ixtisaslara qəbul daha çox say üzərindən qurulub və nəticədə əmək bazarının ehtiyacından artıq məzun hazırlanıb: "Bu gün əsas məsələ neçə müəllim yetişdirmək deyil, necə müəllim yetişdirməkdir. Müasir məktəb artıq yalnız dərs deyən müəllim yox, analitik düşünən, rəqəmsal bacarıqlara sahib, psixoloji yanaşmanı bilən və şagirdi həyata hazırlayan müəllim tələb edir".

AGMA rəhbərinin fikrincə, digər mühüm məsələ ixtisaslaşmadır: "Dünyanın qabaqcıl təhsil sistemlərində müəllim hazırlığı daha çox ixtisaslaşmış universitetlər və güclü pedaqoji mərkəzlər üzərindən həyata keçirilir. Bu baxımdan, bizdə də müəyyən ixtisasların və ya proqramların birləşdirilməsi, bəzilərinin isə mərhələli şəkildə azaldılması gələcək üçün faydalı ola bilər".

## "QƏBUL PLANININ BİRDƏN-BİRƏ AZALDILMASI UĞURLU ADDIM OLMAYACAQ"

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) baş müəllimi Xalidə Həmidovanın fikrincə, universitetlərin çoxunun tələbə qəbul potensialı heç də hazırkı qəbul planına uyğun deyil: "Bunun üçün həmin universitetlərin sovet dövründə tikilmiş binalarının yenilənməsi, yataqxanalarının təmir edilməsi, elektron bazalarının hazırlanması, yeni resursların alınması lazımdır. Universitetlər daxili büdcə hesabına maliyyələşən qurumlardır. Tələbə sayının azaldılması onların maddi vəziyyətini də sual altında qoyacaq".

X.Həmidova hesab edir ki, pedaqoji kadrların azaldılması həm də rəqabət mühitinin azalmasına gətirib çıxaracaq: "Qəbul planının azaldılması tələbə sayının azalması deməkdir. Bu da öz növbəsində universitetlərdə təhsil haqlarının artırılmasına gətirib çıxara bilər. Son illərdə Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllimlik ixtisasları üzrə qəbul planlarını 100 faiz doldurur. Bu o deməkdir ki, ehtiyac var. Bu baxımdan düşünürəm ki, qəbul planının birdən-birə azaldılması uğurlu addım olmayacaq. Yaxşı olar ki, qərar qəbul etməzdən öncə daha çox araşdırma aparılsın".



Xalidə Həmidova

## KƏMİYYƏTDƏN KEYFİYYƏTƏ KEÇİD STRATEGİYASININ TƏRKİB HİSSƏSİ

Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucov pedaqoji ixtisasların azaldılmasına ölkənin təhsil siyasətində kəmiyyətdən keyfiyyətə keçid strategiyasının tərkib hissəsi kimi baxır: "Bu, təklif və tələb arasındakı disbalansdan irəli gəlir. Hər il ali və orta ixtisas müəssisələrinə ayrılan 60 min plan yerindən 25 mini müəllimlik ixtisası üzrə olur. İllik vakant müəllim yerlərinin sayı isə maksimum 8-10 min civarında olur. Bu, hər il minlərlə məzunun işsiz qalmasına səbəb olur. Həmçinin universitetlərin daha çox tələbə qəbul edərək pul qazanmaq cəhdləri kadr hazırlama keyfiyyətini kölgədə qoyur. Universitetlərin bu yanaşması kökündən yanlışdır. Ali məktəblər pulu yalnız tələbənin ödəyəcəyi təhsil haqqı ilə qazanmamalıdırlar. Bu mənada qəbul planının azaldılması hər bir tələbəyə düşən xərcin və diqqətin artmasına, nəticədə daha peşəkar kadrların hazırlanmasına xidmət edəcək".



Pərvinə Qədimova

Ekspert bildirir ki, xüsusən region universitetlərində və kolleclərdə aşağı balla müəllim ixtisasına qəbul təhsilin təməlinin zəifləməsinə gətirib çıxarır. Kollec məzunları MİQ imtahanlarında da uğursuz nəticə göstərirlər. İ.Orucov demoqrafik dəyişikliklərin də müəllimə tələbatı azaltdığını düşünür. Onun sözlərinə görə, ölkədə doğum səviyyəsi ilbəil aşağı düşür. Paralel olaraq birinci siniflərə qəbul statistikasında da azalma var: "Hesab edirəm ki, bu mənada pedaqoji ixtisasların azaldılması doğru addımdır".

Ekspert bildirir ki, müəllim hazırlığının mərkəzləşdirilməsi də çox önəmlidir: "Pedaqoji kadr hazırlığı əsasən bu sahədə ixtisaslaşmış dövlət universitetlərində saxlanılmalıdır. Məqsəd kəmiyyət deyil, hazırlıqlı mütəxəssis yetişdirmək olmalıdır".



İlqar Orucov

# BAKI YOLLARINDA YENİ ÇAĞIRIŞLAR

**Yol hərəkəti iştirakçıları üçün inzibati xətalara görə müxtəlif məbləğlərdə cərimələr tətbiq olunur və bu sistem müəyyən qaydalar çərçivəsində işləyir. Cərimə balının əlavə mexanizm kimi tətbiqi "cərimə üzərindən əlavə cərimə" kimi qiymətləndirilir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bakıda sükan arxasında olmaq əvvəlki illərlə müqayisədə daha çətin olub. Yeni avtobus zolaqları, dayanma-durma qaydalarına ciddi nəzarət, çoxsaylı kameralar və elektron cərimə mexanizmləri sürücülərin gündəlik hərəkətinə ciddi təsir göstərir. Məsələn, hazırda sürücülərin ən çox narazılıq etdiyi məsələlərdən biri 346.4-cü maddə ilə bağlı tətbiq olunan cərimələrdir. Bu maddə üzrə 80 manat cərimə və 2 cərimə balı nəzərdə tutulur. Taksi sürücüləri hesab edirlər ki, onların əsas fəaliyyəti sərnişin götürüb-düşürməkdir, lakin bunun üçün kifayət qədər uyğun dayanma məntəqələri yaradılmadığından tez-tez cərimələrlə üzləşirlər. Bu səbəbdən taksi fəaliyyəti ilə məşğul olanlar arasında cərimə balı həddinə yaxınlaşanların sayı artıb. Belə bir vaxtda sürücülük vəsiqələri üzrə cərimə balı limitinin artırılması ilə bağlı təkliflər gündəmə gəlib. Məsələ Milli Məclisdə müzakirə olunur.

Bəs dəyişən yol infrastrukturu və hərəkət qaydaları fonunda yalnız bal limitinin artırılması kifayət edəcəkmi? Ümumiyyətlə, sistemin hansı elementlərinə yenidən baxılmağa ehtiyac var?

## MALİYYƏ SANKSİYASI, CƏRİMƏ BALI

Nəqliyyat eksperti Eldəniz Cəfərov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, cərimə balı limitinin müzakirəyə çıxarılmasının bir neçə səbəbi var. Onlardan biri bəzi nisbətən yüngül inzibati xətalara görə də balın tətbiq edilməsidir: "Məsələn, dayanma-durma qaydalarının pozulmasına və ya avtobus zolağına daxil olmağa görə sürücülərə həm maliyyə sanksiyası, həm də cərimə balı tətbiq olunur. Bu isə xüsusilə peşə fəaliyyəti sürücülüklə bağlı olan şəxslər arasında narazılıq yaradır. Çünki cərimə balı limiti keçildikdə onlar müəyyən müddətə sürücülük hüququndan məhrum edilirlər və bu da birbaşa gəlirlərinə təsir göstərir. Digər vacib məsələ isə cərimələrin tətbiqi və onlara baxılması mexanizmidir. Sürücülərin şikayətləri operativ araşdırılmalı, əsassız tətbiq edilmiş cərimələr vaxtında ləğv edilməlidir. Bu istiqamətdə problemlər minimuma endirilsə, cərimə balı limitinin artırılması məsələsi də bəlkə bu qədər aktuallaşmazdı".

## "LİMİTİN ARTIRILMASI PROBLEMİ HƏLL ETMİR"

Mütəxəssis vurğulayır ki, limitin artırılması problemi həll etmir: "Bu addım daha çox hazırda limitə yaxınlaşan sürücülər üçün müəyyən güzəşt xarakteri daşıya və onların sürücülük hüququndan məhrum edilməsinin qarşısını ala bilər. Lakin limitin artırılması özlüyündə yol hərəkətində təhlükəsizliyi təmin etməyəcək. Bu, nə qayda pozuntularının, nə də yol-nəqliyyat hadisələrinin avtomatik olaraq azalacağı deməkdir. Araşdırmalarımıza görə, yol-nəqliyyat hadisələrinin əsas səbəbi əksər hallarda yol hərəkəti iştirakçılarının qaydaları pozmaları ilə bağlıdır. İnfrastruktur problemləri müəyyən rol oynasa da, onlar adətən sonrakı səbəblər sırasında yer alır".





Foto: Tapdıq Abdullayev/Global Photostock

## YOL HƏRƏKƏTİNİN TƏHLÜKƏSİZLİYİNƏ MƏNFİ TƏSİR GÖSTƏRƏN ƏSAS AMİLLƏR

E.Cəfərovun sözlərinə görə, son illərdə Bakıda yol hərəkətinin təşkili ilə bağlı dəyişikliklər daha genişmiqyaslı şəhər mobilliyi layihələrinin tərkib hissəsi kimi həyata keçirilir. Bu dəyişikliklərin əsas məqsədi şəhər mühitində hər kəs üçün təhlükəsiz və rahat hərəkəti təmin etmək, yol-nəqliyyat hadisələrinin sayını azaltmaq, eləcə də ictimai nəqliyyatın, xüsusilə avtobusların hərəkətini daha səmərəli təşkil etməkdir: "Bununla yanaşı, velosiped və elektroskuter kimi mikromobillik vasitələrinin istifadəsinin təşviqi də prioritet istiqamətlərdəndir. Bu sahədə müəyyən müsbət nəticələr də müşahidə olunur. Artıq velosiped və elektroskuterlər Bakıda alternativ nəqliyyat vasitələri kimi geniş istifadə olunur. Amma problemlər də qalmaqdadır. Bəzi hallarda sürücülərin yol nişanlarını və nişanlanma xətlərini düzgün şərh etməkdə çətinlik çəkməsi, parklanma qaydalarını bilməməsi, ümumilikdə sürücülük vərdişlərinin yetərli səviyyədə olmaması yol hərəkətinin təhlükəsizliyinə mənfi təsir göstərən əsas amillərdir".



Eldəniz Cəfərov

## "ŞƏHƏRİN ƏKSƏR KÜÇƏLƏRİNDƏ DAYANMA VƏ DURMA MƏHDUDLAŞDIRILIB"

Nəqliyyat eksperti Aslan Əsədov deyir ki, bu gün şəhərin əksər küçələrində dayanma və durma məhdudlaşdırılıb və ya qadağan edilib. Bu isə öz növbəsində yol hərəkəti iştirakçılarına təsir göstərir və müəyyən hallarda bu tendensiyanın həlli üçün əsaslandırılmış yanaşmalar tələb edir: "Yol hərəkəti iştirakçılarının fəaliyyətinin səmərəliliyi də nəzərə alınmalıdır. Hər kəs mövcud qayda və qanunlara uyğun şəkildə hərəkət etməklə bu səmərəliliyin qorunmasına töhfə verməlidir. Bu yanaşma yol hərəkəti qaydalarının daha sərbəst və axıcı olmasına, eləcə də onların sadələşdirilməsinə şərait yarada bilər. Bu da ümumilikdə müsbət addım kimi dəyərləndirilə bilər".



## "PROSEDURLAR VƏTƏNDAŞLAR ÜÇÜN ANLAŞILAN OLMALIDIR"

Nəqliyyat eksperti bildirir ki, mövcud cərimə balı sistemi, ümumilikdə şəhərdə tətbiq olunan cərimə mexanizminin bir hissəsi kimi formalaşıb. Onun sözlərinə görə, yol hərəkəti iştirakçıları üçün inzibati xətalara görə müxtəlif məbləğlərdə cərimələr tətbiq olunur: "Lakin cərimə balının əlavə mexanizm kimi tətbiqi "cərimə üzərindən əlavə cərimə" kimi qiymətləndirilə bilər ki, bu da vətəndaşlar üçün yük yaradır. Buna görə də cərimə balları sisteminə yenidən baxılması və daha sadə formada tətbiqi məqsədəuyğundur".



Aslan Əsədov

Aslan Əsədov əlavə edir ki, əsas istiqamət yol hərəkəti təhlükəsizliyinin təmin olunmasıdır. Onun fikrincə, qaydaların daha sadə və aydın formada tətbiqi, eləcə də sistemin ümumilikdə təkmilləşdirilməsi vacibdir: "İlk növbədə vətəndaşlar üçün prosedurların anlaşılan və işlək olması təmin edilməlidir".

# YENİYETMƏLƏRİ ZƏHƏRLƏYƏN YENİ TREND

Bugünlərdə Ombudsman energetik içkilərin uşaqlara təsiri ilə bağlı çağırış edib. Çağırışda energetik içkilərin uşaqlar tərəfindən istifadəsinin qarşısının alınması üçün qüvvədə olan qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac olduğu bildirilib.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) mütəxəssisləri uzun illərdir ki, uşaqlar və yeniyetmələr tərəfindən enerji içkilərinin istehlakının sağlamlığa ciddi zərər verməsi barədə xəbərdarlıq edirlər. Son vaxtlar aparılan tədqiqatlar da enerji içkilərinin məktəblərdə yeniyetmələr arasında davranış problemlərinin və zorakılığın artmasında, riskli davranışlarda əhəmiyyətli rol oynadığını göstərir.

Bugünlərdə energetik içkilərin uşaqlar tərəfindən istifadəsi ilə bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) açıqlaması da bu tip narahatlıqlardan qaynaqlanır. Ombudsmanın müstəqil monitorinq mexanizmi ictimai yerlərdə, eləcə də təhsil müəssisələrinin ətrafında yetkinlik yaşına çatmayan şəxslərin energetik içkilərdən istifadəsinin sistemli xarakter aldığını qeydə alıb. Bu içkilərin satışı prosesində yaş məhdudiyyətinə nəzarətin kifayət qədər olmadığı, xüsusilə vendinq aparatları, avtomatlaşdırılmış satış terminalları və pərakəndə satış obyektlərində yaşa nəzarət mexanizmlərinin faktiki olaraq tətbiq olunmadığı müşahidə olunub.

Ombudsman vəziyyətlə bağlı çağırış edərək bu kimi halların davam etməsinin uşaqların konstitusion hüquqlarının, xüsusilə sağlamlıq hüquqlarının təmin olunmasında maneələr yaratdığını bildirib. Çağırışda energetik içkilərin uşaqlar tərəfindən istifadəsinin qarşısının alınması üçün qüvvədə olan qanunvericiliyin və bununla bağlı mövcud nəzarət mexanizmlərin təkmilləşdirilməsinə ehtiyac olduğunu da bildirib.

Səhiyyə işçiləri, psixoloqlar və digər ekspertlər də problemin kifayət qədər ciddi olduğunu bildirirlər.

## "Uşaqların yuxuları pozulur, akademik göstəriciləri aşağı düşür"

Azərbaycan Tibb Universitetinin (ATU) uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri Şəhla Balayeva hesab edir ki, 16 yaşa qədər uşaqların energetik içkilərdən istifadə etməsi ümumiyyətlə, düzgün deyil: "Bu içkilər ürək-qan damar sisteminə güclü mənfi təsir göstərir. Maddələr mübadiləsinin pozulmasına, həyəcanlılığın artmasına, sinir sisteminin pozuntusuna səbəb olur. Uşaqların yuxuları pozulur, akademik göstəriciləri aşağı düşür. İstifadənin dövriyyəsindən və uşaqların sağlamlıq vəziyyətindən asılı olaraq təsirlər dəyişir. Energetik içki içən adamlarda qəfil ürək dayanmasının baş verməsi ilə bağlı çoxlu nümunələr var".

Ş.Balayeva hesab edir ki, bu içkilər yeniyetmələrə satılmamalıdır: "Hazırda energetik içkilərin reklamı çox güclüdür. Əslində bu içkilərin kiçik yaşlı uşaqlara satışı qadağan olunmalı, reklamının qarşısı alınmalıdır. Cəmiyyətdə hörməti olan insanların bu içkiləri reklam etməsi onların uşaqlar arasında geniş yayılmasının əsas səbəblərindən biridir. Təəssüf ki, alkoqollu içkilərin, siqaretin reklamı qadağan edilsə də, bu məhdudiyyət hələ energetik içkilərə gəlib çatmayıb".



Şəhla Balayeva

Məlahət Abbasova

### "UŞAQLARA SATIŞINA QADAĞA QOYULMALIDIR"

Həkim-terapevt Məlahət Abbasovanın sözlərinə görə, energetik içkilər orqanizmdəki enerji balansını pozur: "Bu içkilər böyüklərə də ziyandır, amma uşaqlara daha çox zərər verir. Çünki uşaqların orqanizmi tam formalaşmayıb. Energetik içkilər hormon balansının pozuntusuna səbəb olur, onlarda kofein asılılığı yaradır. Uzun müddət qəbul edəndə onlarda əsəbilik, yuxusuzluq, orqanizmin bərpa prosesinin ləngiməsi, psixoloji hallar kimi fəsadlar meydana çıxır. Qız uşaqları bu içkilərdən istifadə edirlərsə, dünyaya sağlam uşaq gətirə bilməzlər".

M.Abbasova hesab edir ki, ilk növbədə valideynlər uşaqlarına nəzarəti gücləndirməlidirlər: "Fikrimcə, bu məsələyə aidiyyəti qurumların da nəzarəti güclənməlidir. Əgər bu içkilər böyüyən nəslə ziyandırsa, onun satışı nizamlanmalı, müəyyən yaş uşaqlara satışına qadağa qoyulmalıdır".

## "Uşağa ilk növbədə energetik içkinin tərkibi izah olunmalıdır"

Psixoloq Aysel Həsənova yeniyetməlik dövrünün insan həyatında həm fizioloji, həm psixoloji, həm də sosial olaraq ağır və böhran dövrü olduğunu bildirir: "Bu dövrdə uşaqlar daha çox emosiya və hisslərlə hərəkət edirlər. Ona görə bu içkilər onlarda mənfi nəticələrə səbəb ola bilir. Nəzərə almaq lazımdır ki, yuxu pozuntusundan əziyyət çəkən, diqqətində problem yaranan, akademik təzyiq altında olan, emosional dəstəyi az olan uşaqlar daha çox risk qrupun daxil olur".

Psixoloq tövsiyə edir ki, içkinin zərərini başa salmaq üçün uşağı qorxutmaq yox, maarifləndirmək lazımdır: "Uşağa ilk növbədə energetik içkinin tərkibi izah olunmalıdır. Uşaqlar bilməlidirlər ki, "için, qanadlanın!" kimi reklamlar mifdir. Mövzu ilə bağlı müzakirələr, psixoloji seminarlar keçirilməli, sağlam alternativlər, müsbət rol modellər olmalıdır".

### HƏM ƏHALİ, HƏM DÖVLƏT ORQANLARI ÇALIŞMALIDIR

Hüquqşünas Ruslan Vəliyev enerji içkiləri ilə bağlı Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sanitar norma və qaydalarının müəyyən olunduğunu bildirir: "Enerji içkilərində olan komponentlərin miqdarı həmin qaydalardan kənardırsa, AQTA həmin mallara dair istehsalçılara və ölkəyə idxala qadağa qoymalı, ya da satışdan çıxarılmalıdır".



Aysel Həsənova



Ruslan Vəliyev

Hüquqşünas hesab edir ki, Ombudsmanın çağırışı dövlət qurumlarına təsir etməlidir: "AQTA energetik içşilərin özünün təsdiq etdiyi norma və qaydalara uyğunluğunu yoxlamalıdır. Ombudsmanın belə tədbirlər görmək səlahiyyəti olmadığı üçün ümumi çağırış edib: həm əhali buna bir az həssas yanaşsın, həm də dövlət orqanları lazımı addımlar atsın. Hesab edirəm ki, bu çağırışdan sonra enerji içkilərinin ölkəyə idxalına və istehsalına nəzarət artırılmalıdır".

# ƏT İSTEHSALINDA NÖVBƏTİ HƏDƏFLƏR

Hökumət 2030-cu ilə qədər ət məhsulları üzrə özünütəminetmənin səviyyəsini artıraraq bazarda qiymət sabitliyinə nail olmağı hədəfləyir. Ekspertlər isə bildirirlər ki, bunun üçün əsas şərt yem xərclərinin azaldılması və istehsalın genişləndirilməsidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda ət bazarında qiymətlərin sabitləşməsinin istehsalın artırılması və maya dəyərinin azaldılması hesabına təmin olunacağı gözlənilir. Kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyevin sözlərinə görə, əsas məqsəd ət istehsalını artırmaq, məhsuldarlığı yüksəltmək və istehsal xərclərini azaltmaqdır. O qeyd edib ki, məhz ət istehsalının maya dəyərinin uyğun səviyyədə formalaşdırılması hesabına bazarda sabitliyə nail olmaq mümkündür. Hazırda ölkəmizin mal ətinə tələbatının 83,7 faizi, qoyun ətinə tələbatının 94,2 faizi, quş ətinə tələbatının isə 82 faizi yerli istehsal hesabına ödənilir. Hökumətin qəbul etdiyi yeni Dövlət Proqramında da ölkənin ət məhsulları üzrə özünütəminetmə səviyyəsinin daha da artırılması nəzərdə tutulur. Bütün bunlardan sonra ətin qiymətini tənzimləmək mümkün olacaqmı və bu, nə dərəcədə realdır?



Foto: Rüfət Mikayılov/Global Photostock

### "DAXİLİ TƏLƏBAT TAMAMİLƏ YERLİ İSTEHSAL HESABINA ÖDƏNƏCƏK"

Milli Məclisin deputatı Azər Badamov Dövlət Proqramının qiymətlərin stabilləşməsinə effektiv təsir göstərəcəyini düşünür: "Azərbaycanda kənd təsərrüfatının strateji istiqamətlərindən biri olan heyvandarlıq sektorunun inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə 2026–2030-cu illəri əhatə edən yeni Dövlət Proqramı qəbul olunub. Sənəddə 2030-cu ilin sonunadək ölkənin ət və quş əti məhsulları üzrə özünütəminetmə səviyyəsinin artırılması, daxili tələbatın əsasən yerli istehsal hesabına ödənilməsi nəzərdə tutulur. Dövlət Proqramında nəzərdə tutulan tədbirlər tam icra edilərsə, yaxın illərdə özünütəminetmə səviyyəsinin əhəmiyyətli dərəcədə yüksələcəyi və daxili tələbatın demək olar ki, tamamilə yerli istehsal hesabına ödənəcəyi şübhəsizdir. Ət bazarında qiymətlərin sabitləşdirilməsi üçün ilk növbədə idxaldan asılılıq azaldılmalı və daxili istehsal genişləndirilməlidir. Qiymətlər tələb və təklif əsasında formalaşdığından, bazarda təklifin artması onun sabitləşməsinə, hətta müəyyən hallarda ucuzlaşmasına səbəb ola bilər. Bunun üçün məhsuldarlığın artırılması, müasir heyvandarlıq təsərrüfatlarının yaradılması, yem bazasının gücləndirilməsi və istehsalın optimallaşdırılması vacibdir".

### 2,2 MİLYARD MANAT HƏCMİNDƏ DÖVLƏT İNVESTİSİYASI

A.Badamov bildirdi ki, proqram çərçivəsində kənd təsərrüfatının inkişafına 2,2 milyard manat həcmində dövlət investisiyasının yönəldilməsi nəzərdə tutulur. Bu vəsait müasir heyvandarlıq komplekslərinin yaradılmasına, yeni texnologiyaların tətbiqinə, damazlıq işinin gücləndirilməsinə və məhsuldarlığın artırılmasına imkan verəcək: "Dünya təcrübəsində olduğu kimi, Azərbaycanda da intensiv və qapalı təsərrüfatların qurulması ət və süd istehsalında ciddi artım yarada bilər".




## "İSTEHSAL XƏRCLƏRİ AZALDILACAQ"

Millət vəkilinin sözlərinə görə, hazırda sektorun əsas problemləri sırasında yem bazasının yetərincə inkişaf etməməsi, örüş və otlaq sahələrinin məhdudluğu, eləcə də innovativ texnologiyaların zəif tətbiqi yer alır: "Ətin maya dəyərinə təsir edən əsas amil isə yem xərcləridir. Xüsusilə quşçuluqda istifadə olunan yem komponentlərinin mühüm hissəsi xaricdən gətirildiyi üçün qlobal bazardakı bahalaşma daxili qiymətlərə birbaşa təsir göstərir. Bu baxımdan yerli yem istehsalının artırılması strateji əhəmiyyət daşıyır. Yem istehsalının genişləndirilməsi ət, süd, quş əti və yumurta istehsalında maya dəyərinin azalmasına ciddi təsir göstərə bilər. Uzunmüddətli qiymət sabitliyi də məhz istehsal xərclərinin aşağı salınması ilə bağlıdır. Dövlət Proqramının nəticələri mərhələli şəkildə hiss olunsa da, əsas iqtisadi təsirlərin 2030-cu ilə yaxın daha aydın görünəcəyi gözlənilir".

### "QİYMƏT SABİTLİYİ ÜÇÜN RİSK OLARAQ QALIR"

İqtisadçı Akif Nəsirlinin fikrincə, ət bazarında qiymətlərin inzibati qaydada sabit saxlanması çətindir. Lakin istehsalın artırılması və xərclərin azaldılması hesabına qiymət artımı tempini zəiflətmək və daha stabil bazar yaratmaq mümkündür: "Bu yanaşma real görünür, amma nəticələr qısa müddətdə deyil, orta və uzunmüddətli perspektivdə özünü göstərəcək. Qiymətlərin tənzimlənməsi üçün əsas yol bazara birbaşa müdaxilə deyil, istehsal zəncirinin gücləndirilməsidir. Buraya yem bazasının genişləndirilməsi, heyvandarlıq təsərrüfatlarının modernləşdirilməsi, damazlıq işinin yaxşılaşdırılması, məhsuldarlığın artırılması və logistika xərclərinin azaldılması daxildir. Eyni zamanda, rəqabət mühitinin gücləndirilməsi və kiçik fermerlərin dəstəklənməsi də bazarın balanslaşmasına kömək edə bilər".

A.Nəsirlinin sözlərinə görə, hazırda ölkədə daxili tələbatın böyük hissəsinin yerli istehsal hesabına ödənilməsi müsbət göstəricidir: "Lakin yem asılılığı, artan xərclər və struktur problemlər qiymət sabitliyi üçün risk olaraq qalır. Əsas problemlərdən biri yem bazarının xarici və ya bahalı yerli komponentlərdən asılı olmasıdır. Bundan başqa, damazlıq heyvanların məhsuldarlığının aşağı olması, kiçik təsərrüfatların çoxluğu, su və otlaq resurslarının məhdudluğu da maya dəyərini artırır. Ətin maya dəyərində yem xərclərinin payı 60-70 faiz təşkil edir. Buna görə də yem istehsalının yerli və daha ucuz formada artırılması qiymətlərə təsir edə biləcək ən effektiv vasitələrdən biridir. Qarğıdalı, arpa, yonca və digər yem bitkilərinin məhsuldarlığı artırılarsa, idxaldan asılılıq azalacaq və istehsal xərcləri aşağı düşəcək. Lakin bu tədbirlərin nəticələri bir neçə mövsüm və ya il ərzində hiss olunacaq".



# "QIRMIZI QATAR"IN NAĞILI

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Bernina Express" İtaliya ilə İsveçrəni birləşdirən, 2253 metr yüksəkliyi fəth edən, UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilən unikal bir layihədir. Bu mühəndislik möcüzəsinin son dayanacağı cazibədar xizək kurortu Sent Moritz şəhəridir.

"Bernina Express" - Avropanın ən gözəl və unudulmaz dəmir yolu səyahətdir. Qatarların adətən yavaş, darıxdırıcı və vaxt aparan olduğunu düşünən turistlər üçün bu marşrutdan sonra təəssüratlar kəskin şəkildə dəyişir. İki saat yarımdan çox müddətdə davam edən səyahət zamanı 2253 metr yüksəklik dəyişikliyini dəf etmək, firuzəyi Alp göllərini, məşhur İsveçrə buzlaqlarını, əfsanəvi yolları, buzdan donan şəlalələri seyr etmək mümkündür. Nağıl turun son dayanacağı dünyanın ən bahalı və cazibədar xizək kurortu - Sent Moritz şəhəridir.

### SƏRİN ŞİMALLA İSTİ CƏNUBUN HARMONİYASI

Dünya miqyasında məşhur olan Bernina qatarı İtaliyanın Tirano terminalını məşhur İsveçrə kurortu olan Sent-Moritz ilə, başqa sözlə desək, sərin şimalı isti cənubla birləşdirir. Bu ərazi İsveçrə ilə İtaliya arasındakı sərhəddir və iki mədəniyyətin mükəmməl birləşməsidir.

Vaqonlarının alovlu rənginə görə belə adlanan "Kiçik Qırmızı Qatar" Reyt Dəmir Yolunun incisidir və 2008-ci ildən bəri UNESCO-nun Dünya İrsi Siyahısına daxildir. Bu nəfəskəsici marşrut Avropanın ən yüksək qatarı, həmçinin "Bernina Express" kimi də tanınır və Alp dağlarına dayaq olmadan qalxır. Qatar palma meşələrinə gedən yolda heyrətamiz buzlaqlardan keçir.

UNESCO-nun veb saytında qeyd edilib: "Bu ərazi XX əsrin əvvəllərində mərkəzi Alp dağlarının təcriddən çıxmasına və davamlı sosial-iqtisadi inkişaf üçün şərait yaratmasına kömək etmək üçün dəmir yollarından istifadənin bariz nümunəsidir. Ətrafdakı təbii mənzərə ilə harmoniyada tikilmiş memarlıq və mülki mühəndislik strukturlarını təcəssüm etdirir".



### 55 TUNEL, 196 KÖRPÜ

Ümumilikdə, qatar Çurdan Tiranoya gedən yolda 55 tuneldən və 196-dan çox körpüdən keçir. Bütün səyahətçilər kimi biz də möhtəşəm mənzərələrdən və məşhur yerlərdən zövq alırıq: Bernina massivinin mənzərələri olan Morteratsç buzlağı, üç göl - Piçen, Nair və Bianko, Alp Qrüm (2094 m) stansiyası və Brusio spiral viadukti - tağlı körpü qurğusunu keçirik. Qatar ilan kimi qıvrılaraq bu möhtəşəm yolları qət etdikcə yaddaşlarda silinməz izlər buraxır.

Səfər boyunca ikonik mənzərələrlə üzləşirik. Əlbəttə, mənzərələri telefonun yaddaşında əbədiləşdiririk. Ətrafdakı buzlaqlar və zirvələr toxunulmamış təbiət atmosferi yaradır. Diqqətimizi çəkən ilk yer Poşyavo gölüdür. Onun güzgü kimi səthi dağları və meşələri əks etdirir, sanki sükut və düşüncə anları üçün xüsusi olaraq yaradılıb. Buradakı mənzərələr nəfəskəsicidir.

"Bernina Express"də restoran yoxdur. Stüardlar səyahət boyunca hər vaqondan keçərək isti və soyuq içkilər, şokoladlar paylayırlar.

"Bernina Express", sözün əsl mənasında, İsveçrə saatı kimi işləyir. Qatarlar il boyu Çur, Sent-Moritz və Tirano arasında hərəkət edir və mövsümdən asılı olaraq gündə bir və ya iki dəfə yola düşür. Yayın ən qızğın vaxtlarında -iyun-sentyabr və qış tətillərində adətən hər istiqamətdə gündə iki qatar olur.



### Turizmdə dönüş nöqtəsi

Bu qatar yolu mühəndis ideyasının şedevri hesab edilir. Layihə isə 1900-cü illərin əvvəllərində, bir qrup mühəndis tərəfindən irəli sürülüb. Tirano-Sent-Moritz marşrutu mərkəzi hökumət tərəfindən 2 mart 1906-cı ildə təsdiqlənir və cəmi dörd il sonra, 5 iyul 1910-cu ildə 61 km-lik yol açılır. Turizmdə dönüş nöqtəsi üçün 2000-ci illəri gözləmək lazım gəlir. Həmin il Pininfarina tərəfindən dizayn edilmiş yeni kabinlər əlavə edilir. Və sonra, 2008-ci ildə dünya bu ecazkar gözəllikdən UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi sayəsində xəbər tutur. Texniki cəhətdən xətt mühəndislik şah əsəridir: dünyanın ən dik dəmir yoludur. Maksimum yamac 7%-dir. Qatar, ilanvari dəmir yolu boyunca 1800 metr hündürlük fərqini aşaraq, Bernina aşırımını (2253 metr) keçir.

Bu gün qatar Tiranodan yola düşür və Sent-Moritzə çatır. Ərazini araşdırmaq üçün düşə biləcəyiniz və sonra həmişə eyni biletlə ekspress qatara yenidən minə biləcəyiniz on iki dayanacaq var. Bu marşrut logistik baxımdan olduqca mürəkkəbdir: transferləri və vaxtı öncədən nəzərə almaq lazımdır. Bütün səyahət tam bir gün çəkir. "Bernina Express"də yerlər əvvəlcədən sifariş edilməlidir, hətta bir və ya iki mənzərəli dayanacaq üçün səyahət etsəniz belə. Bu o deməkdir ki, sadəcə minib-düşə bilməzsiniz. Panoramik qatara onlayn bilet alanda daha ucuz başa gəlir: 2-ci sinif üçün 33 CHF (75 AZN). Qatarda yer üçün rezervasiya isə biletdən öncə edilir və ayrıca qiyməti var: 32 CHF (69 AZN). Milandan Turanoya gediş-dönüş biletlərini də nəzərə alsaq ümumilikdə xərc 400 AZN-ə yaxındır. Amma zövqlü turistlər həyatda görülməli yerlər siyahısında Bernina marşrutunun yolçusu olmaqdan heç bir halda imtina etmirlər: yəni bu xərci çəkməyə dəyər. Çünki bu, Avropanın ən dramatik və müxtəlif füsunkar mənzərələrinə açılan əsl qapıdır. "Bernina Express" Alp dağlarının ən möhtəşəm keçidini təklif edir.

Turistlərin bilməli olduğu ən vacib şey: "Bernina Express" ilə "Bernina qatarı" arasındakı fərq vaqonlardadır. Bernina qatar xətti var, amma bütün digər detallar rahatlıq, qiymət və səyahət müddəti ilə bağlıdır. Panoramik pəncərələr açılmır. Digər qırmızı vaqon qapılarında fotoqrafiya üçün açıla bilən pəncərələr var. Bu qatarlarda qiymət panoramik qatarlarla müqayisədə ucuzdur.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
13 İYUN ŞƏNBƏ 2026
www.kaspi.az

İyunun 16-da Çempionlar Liqası, Avropa Liqası və Konfrans Liqasının ilk təsnifat mərhələlərinin püşkü atılacaq. Lakin hazırda Azərbaycan klubları üçün bəzi qeyri-müəyyən məqamlar qalmaqdadır.

# KLUBLARIMIZ AVROPA SƏHNƏSİNƏ ÇIXIR



Böyük futbol ölkələrinin diqqətinin dünya çempionatına yönəldiyi bu günlərdə klublarımız üçün yeni avrokubok mövsümü start götürmək üzrədir. Təmsilçilərimiz tezliklə ilk rəqiblərini tanıyacaqlar. İyunun 16-da Çempionlar Liqası (ÇL), Avropa Liqası (AL) və Konfrans Liqasının (KL) ilk təsnifat mərhələlərinin püşkü atılacaq.

**"TURAN TOVUZ", YOXSA "ZİRƏ"?**

2025/26 mövsümünün yekunlarına əsasən, Azərbaycanı ÇL-də "Sabah" təmsil edəcək. Paytaxt klubu kubokun da qalibi olduğu üçün çempionatda ikinci yeri tutmuş "Qarabağ" AL-ə vəsiqə qazanıb. "Neftçi"nin də avrokuboklarda iştirakı dəqiqləşib. "Sabah"ın kubokun finalında "Zirə"ni məğlub etməsindən sonra çempionatda dördüncü yeri tutan "ağ-qaralar" KL-də iştirak hüququ əldə edib.

Avropada Azərbaycanı təmsil edəcək dördüncü klubun hansı olacağı isə hələlik bəlli deyil. İdman prinsiplərinə əsasən, bürünc mükafatçı "Turan Tovuz" KL-də çıxış etməlidir. Lakin klub hələ I Divizionda mübarizə apararkən - 2019-cu ildə yeddi futbolçusunun danışılmış oyunlarda iştirakı təsdiqləndiyinə görə UEFA tərəfindən avrokuboklardan kənarlaşdırılıb. Qərb təmsilçisi UEFA-nın qərarından İdman Arbitraj Məhkəməsinə (CAS) müraciət edib. Klubun avrokuboklarda iştirak edib-etməyəcəyi məhz CAS-ın qərarından asılı olacaq.

"Turan Tovuz"un avrokuboklardan kənarda qalacağı təqdirdə onu "Zirə" əvəzləyəcək.

## "Qarabağ"dan böyük gözləntilər

Ölkə çempionluğunu itirsə də, ötən mövsüm ÇL-in pley-off mərhələsinə yüksələrək tarix yazan "Qarabağ" bu dəfə AL-də mübarizə aparacaq. Ağdam təmsilçisindən gözləntilər yenə yüksəkdir. Qurban Qurbanovun komandası birinci təsnifat mərhələsində yarışa başlayacaq və burada ən yüksək reytinqə malik iştirakçılardan biri olacaq. Bu səbəbdən ilk mərhələdə nisbətən münasib rəqiblə qarşılaşması gözlənilir. Potensial rəqiblər arasında ən təhlükəlisi Rumıniyanın "Universitatya Kluj" komandası hesab olunur.

"Qarabağ" ikinci təsnifat mərhələsində də səpələnmişlər səbətində yer alacaq. Bu da nəzəri olaraq daha münasib rəqiblə qarşılaşmaq imkanı yaradır. Lakin artıq bu mərhələdə Kiyev "Dinamo"su, Niderland "Tvente"si və Türkiyə "Beşiktaş"ı kimi daha güclü komandalar potensial rəqiblər sırasına daxil olacaq. Ağdam təmsilçisi üçüncü mərhələyə yüksələrsə, artıq səpələnmişlər sırasında yer almayacaq və daha ciddi rəqabətlə üzləşəcək.

Klubun son illərdə Avropada qazandığı təcrübə komandaya olan inamı artırır. Əsas gözlənti AL-in liqa mərhələsinə yüksəlməkdir. Lakin heyətdə baş verən dəyişikliklər və yeni futbolçuların uyğunlaşma prosesi mövsümün ilk mərhələlərində müəyyən çətinliklər yarada bilər.

## "Sabah" üçün əlverişli imkan

İlk dəfə ÇL-də çıxış edəcək "Sabah" aşağı reytinqə malik olduğuna görə birinci təsnifat mərhələsində səpələnməmişlər səbətində yer alacaq. UEFA birinci və ikinci təsnifat mərhələlərinin püşkünü iki gün ərzində keçirəcək. İkinci raundun püşkü birinci mərhələnin cütləri əsasında formalaşdırılacaq və həmin cütün hansı səbətdə yer alacağı daha yüksək reytinqə malik tərəfin göstəricisinə əsasən müəyyən-ləşdiriləcək. Birinci təsnifat mərhələsində "Drita", KuPS, "Şemrok Rovers" (İrlandiya), "Linkoln Red İmps" (Cəbəl-lütariq) və Bosniya və Herseqo-vinanın "Borats" klublarının yer aldığı cütlər səpələnmişlər sırasında ola-caq. Bu ko-man-daların əksəriyyəti "Sabah" üçün keçilməz rəqib hesab edilmir. Əksinə, onlardan biri ilə qarşılaşmaq ikinci mərhələdə nisbətən münasib rəqib əldə etmək şansını artıra bilər.

Üçüncü təsnifat mərhələsində isə Xorvatiyanın "Dinamo" (Zaqreb) və Serbiyanın "Srvena Zvezda" kimi güclü klubları mübarizəyə qoşulacaq.

Ümumilikdə, ÇL-də ilk mərhələni keçmək Azərbaycan çempionu üçün strateji əhəmiyyət daşıyır. Birinci raundda məğlub olan komanda KL-ə, bu mərhələni adlayıb sonradan mübarizəni dayandıran klub isə AL-ə yönləndirilir. Bu baxımdan, hər hansı avrokubokun əsas mərhələsinə vəsiqə qazanmaq üçün ÇL-də mümkün qədər irəliləmək böyük üstünlükdür.

## Konfrans Liqasında vəziyyət necədir?

"Turan Tovuz"un avrokuboklara buraxılıb-buraxılmamasından asılı olaraq KL-də iştirakçıların səbətləri müəyyən qədər dəyişə bilər. Klubun iştirakına icazə verilərsə, komanda ikinci təsnifat mərhələsindən yarışa başlayacaq. "Neftçi" isə birinci raunddan mübarizəyə qoşulacaq.

Hazırkı vəziyyətdə isə "Zirə" birinci təsnifat mərhələsinin iştirakçısı kimi görünür. Reytinqinin yüksək olması səbəbindən qəsəbə təmsilçisi səpələnmişlər səbətində yer alacaq. Bu isə daha münasib rəqiblə qarşılaşmaq ehtimalını artırır. Mövcud variantların əksəriyyətində "Zirə"nin mərhələ keçmək şansı kifayət qədər yüksək qiymətləndirilə bilər.

Lakin ikinci təsnifat mərhələsinin püşkü zamanı həm "Zirə"nin yer aldığı cüt, həm də "Neftçi" səpələnməmişlər sırasında olacaq. Bu isə daha güclü rəqiblərlə qarşılaşmaq ehtimalını artırır. Potensial komandalar arasında Portuqaliyanın "Braqa", Niderlandın "Ayaks", Danimarkanın "Kopenhagen", Yunanıstanın "Panatinaikos" və Belçikanın "Gent" klubları da var.

ÇL-də birinci təsnifat mərhələsinin ilk oyunları iyulun 7-8-də, AL-də iyulun 10-da keçiriləcək. KL-də isə birinci təsnifat mərhələsinin ilk qarşılaşmaları iyulun 10-da, ikinci raundun ilk oyunları isə iyulun 23-də baş tutacaq.